RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 249 (9128) ÇƏRŞƏNBƏ, 16 noyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Azərbaycan-Albaniya əlaqələrinin inkişafına güclü təkan



◆ Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyaya dövlət səfəri

## Zəfərdən sonrakı başlanğıc



### İlham Əliyev iki il öncə Qarabağ və Şərqi Zəngəzura ilk səfəri ilə bu ərazilərimizdə yeni həyatın təməlini qoydu

Tarix 16 noyabr 2020-ci il...

44 günlük Vətən müharibəsindəki şanlı zəfərimizdən 8 gün, Ermənistanın hərbi kapitulyasiyasından (10 noyabr üçtrəfli Bəyanat) 6 gün sonra...

Müzəffər Ali Baş Komandan İlham Əliyev qalib sərkərdə kimi Qarabağ və Şərqi Zəngəzura ilk səfərini edir və təqvimin bu gününü belə qiymətləndirir: "Bu gün, noyabrın 16-sı mənim həyatımda xüsusi tarix olaraq qalacaq".

Bu, 200 əsrlik münaqişəyə, 30 illik müharibəyə son qoyaraq adını Azərbaycan tarixinə xilaskar Müzəffər Ali Baş Komandan kimi yazdıran İlham Əliyevin həm də Azərbaycanın ən qüdrətli sərkərdəsi olduğunu təsdiqləyən reallıq oldu.

Bu səfərin digər özəlliyi isə o idi ki, dünya bir daha Azərbaycanın necə bir vəhşi düşmənlə üz-üzə yaşadığına şahidlik etdi, barbarların 30 ildə yurd yerlərimizi hansı hala saldıqları bir daha bəşəriyyətə bəlli oldu.

→ 9

## Tirana Beynəlxalq Hava Limanında qarşılanma

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Albaniya Respublikasına dövlət səfərinə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Tirana şəhərinin Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Albaniyanın Baş nazirinin müavini, infrastruktur və energetika naziri xanım Belinda Balluku və digər rəsmi şəxslər qarşıladılar.



## Rəsmi qarşılanma mərasimi



→ 2

## Fələstin Dövlətinin Prezidenti zati-aliləri cənab Mahmud Abbasa

Hörmətli cənab Prezident!

Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

İnanıram ki, ölkələrimiz arasında münasibətlər birgə səylərimizlə həm ikitərəfli, həm də çoxtərəfli əsasda bundan sonra da uğurla inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Fələstin xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 noyabr 2022-ci il*

## Təkbətək görüş



→ 2

## Azərbaycan və Albaniya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər



→ 3

## İşğaldan azad olunmuş ərazilərə UNESCO missiyasının tezliklə təşkilinə ümid edirik

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) xoşməramlı səfiri kimi fəaliyyətinə xitam verilməsi məqsədilə UNESCO-nun baş direktoru Odri Azuleyə məktub ünvanlayıb.**



Bu barədə AZƏRTAC-a UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasından məlumat verilib.

Bildirilib ki, məktubda Azərbaycanla UNESCO arasında əməkdaşlığın inkişaf etdirilməsi, bu təşkilatın dəyər və prinsiplərinin irəlilədilməsi sahəsində 2004-cü ildən xoşməramlı səfir kimi fəaliyyəti dövründə təşkilatla çoxsaylı birgə layihələrin əhəmiyyəti diqqətə çatdırılıb. Bu xüsusda 2013-cü ildə Azərbaycanla UNESCO arasında imzalanmış Çərçivə Sazişi, müvafiq Azərbaycan-UNESCO Etimad Fondu, mədəni irsin qorunması, qızların təhsili, gender bərabərliyi kimi sahələrdə bir sıra ölkələrdə həyata keçirilən layihələrə dəstək və digər tədbirlər qeyd olunub.

Məktubda həmçinin 30 ilə yaxın işğal dövründə Ermənistan tərəfindən Azərbaycanın mədəni irsinə və tarixi abidələrinə qarşı həyata keçirilmiş siyasət və vandallıq barədə məlumat verilib. İndiki mərhələdə Vətən müharibəsi nəticəsində ərazilərimizin uzunmüddətli işğaldan azad edilməsindən sonra genişmiqyaslı bərpa və bölgənin dirçəldilməsi işlərinə Birinci vitse-prezidentin aktiv cəlb olunduğu və xüsusi rolu nəzərə alınaraq, onun UNESCO-nun xoşməramlı səfiri vəzifəsini yerinə yetirməsinin imkan xaricində olduğu vurğulanıb.

Qeyd edilənlərlə əlaqədar Ermənistanın işğalı nəticəsində Azərbaycanın mədəni irsinə dəyən zərərin qiymətləndirilməsi məqsədilə işğaldan azad olunmuş ərazilərə UNESCO missiyasının tezliklə təşkilinə ümid ifadə olunub.

Ünvanlanmış müraciətdə Azərbaycanın bundan sonra da UNESCO-nun təməl prinsiplərini qoruyub saxlayacağı, təşkilatla əməkdaşlığın inkişafını təşviq edəcəyi diqqətə çatdırılıb.

## Rəsmi lanç əsnasında geniş tərkibdə görüş



→ 2

## "Mother Albania" abidəsini ziyarət



→ 4

## Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyaya dövlət səfəri

# Azərbaycan-Albaniya əlaqələrinin inkişafına güclü təkan

## Rəsmi qarşılanma mərasimi

Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniyanın paytaxtı Tiranadakı "Brigades" Sarayında rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Albaniyanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Azərbaycanın və Albaniyanın Dövlət himnləri səsləndi. Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Bayram Beqaya, Albaniyanın dövlət və hökumət nümayəndələri isə Prezident İlham Əliyevə təqdim edildi.

Dövlət başçıları birgə foto çəkdirdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.







## Təkbətək görüş



Noyabrın 15-də Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

## Rəsmi lanç əsnasında geniş tərkibdə görüş



Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə rəsmi lanç əsnasında geniş tərkibdə görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyaya dövlət səfəri

# Azərbaycan-Albaniya əlaqələrinin inkişafına güclü təkan

## Azərbaycan və Albaniya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

Noyabrın 15-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Albaniya Respublikasının Prezidenti Bayram Beqay mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Albaniya dövlətinin başçısı çıxış etdi.



### Prezident Bayram Beqayın bəyanatı

- Hörmətli Prezident Əliyev!

Əziz dostlar!

Hörmətli iştirakçılar!

Bu gün mən Azərbaycan Prezidenti cənab İlham Əliyevi burada - Tiranada böyük məmnunluqla qəbul edirəm.

Cənab Prezident, bizim dəvətimizi qəbul etdiyinizə, bizimlə apardığınız məhsuldar əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Bu, əlaqələrimizin tarixində ilk mühüm dövlət səfəridir. Azərbaycan Prezidenti ölkəmizə səfər edib. Belə yüksəksəviyyəli səfər münasibətlərimizin inkişaf etdirilməsində, xalqlarımız arasında əməkdaşlığın genişləndirilməsində qarşılıqlı iradəmizin təzahürüdür.

Ölkələrimiz arasında aparılan dialoqa görə dərin təşəkkürümü bildirirəm. Cənab Prezident, çox yaxşı haldır ki, Siz bu gün ölkəmizdəsiniz. Əslində, bu, qarşılıqlı maraq doğuran əməkdaşlığın yeni sahələrini açır. Albaniya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünün qeyd edilməsinə gəldikdə, 2023-cü ildə biz əməkdaşlığımızın daha intensiv mərhələsinə qədəm qoyacağıq. Biz burada Azərbaycan Həftəsini keçirmək niyyətindəyik. Əslində, bu tədbir ölkənizin burada mədəni baxımdan təşviq olunması üçün önəmlidir. Biz həmçinin burada ölkənizin səfirliyinin açılması ilə əlaqədar iradəsini bildirdiyinə görə Azərbaycan tərəfinə minnətdarıq və həmin addım ölkələrimiz arasında əməkdaşlığın yaxşı təzahürüdür.

Bu gün aparılan müzakirələr xüsusilə vacibdir, çünki biz gələcək üçün yeni istiqamətləri müəyyən edirik, bizim üçün maraqlı olan sahələri təyin edirik. Bununla qeyd etmək istərdik ki, Birgə Komitənin iclası əlaqələrimizi daha da möhkəmləndirə bilər. Beləliklə, Albaniya enerji, infrastruktur, turizm, kənd təsərrüfatı və sənaye sahələrində əməkdaşlığın genişləndirilməsində olduqca maraqlıdır. Əlbəttə ki, enerji sahəsində İon-Adriatik boru kəməri Albaniyanı, Monteneqronu, Xorvatiyanı birləşdirərək, ölkələrimizin geosiyasi əhəmiyyətini artırır və regional, o cümlədən Avropa səviyyəsində qaz təchizatının şaxələndirilməsini nümayiş etdirir. Bilirik ki, bu sahədə ölkənizin sərmayə qoyuluşu baxımından təcrübəsi var. Albaniya həmçinin öz ərazisində tranzit imkanlarından istifadəyə çox açıqdır və hazırdır. Qaz infrastrukturumuzdan bu məqsədlə tam istifadə olunmasını mümkün hesab edirik. Bu sahədə daha böyük nəticələrin əldə olunmasını səmimiyyətlə arzu edirik. Beləliklə, biz əməkdaşlığımızın yeni yollarını açırıq və bu məqsədlə Azərbaycan tərəfinin göstərəcəyi səyləri alqışlayırıq. Fikrimizcə, birgə işləyərək öz imkanlarımızı səfərbər edə biləcəyik və daha da genişləndirəcəyik.

Əslində, turizm ölkələrimizin iqtisadiyyatlarının digər mühüm sahəsidir. Azərbaycan uğurlu təcrübəni özündə əks etdirir. Biz bundan yararlana bilərik. Mən cənab Prezidentə bəyan etdim ki, bu sahədə Azərbaycan tərəfindən qoyulacaq sərmayələri yüksək dəyərləndirərdik. Eyni zamanda mədəniyyət sahəsində birgə işləməliyik ki, xalqlarımız daha yaxın olsun, bir-birini tanısın. Bununla bağlı iki tərəf arasında yeni sazişlər imzalana bilər. Bilirik ki, mədəniyyət və incəsənət sahəsinə aid olan minlərlə eksponat nümayiş etdirilə bilər. Cənab Prezident, mən Sizə bildirdim ki, bu, irsimizin qorunmasına töhfə verəcəkdir. 2019-cu ildə baş vermiş zəlzələdə də göstərilən yardımı yüksək dəyərləndiririk.

İstərdik bildirək ki, Ukraynada gedən müharibə və onun nəticələrinə gəldikdə biz ümumi mövqedən çıxış edirik: diplomatiya və dialoq irəliyə doğru aparan əsas yoldur. Bu həmçinin Cənubi Qafqaz və digər bölgələr üçün də vacibdir. Albaniya Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmasına öz dəstəyini verib. Ukraynadakı müharibəyə gəldikdə bəyan edirəm ki, biz Ukraynanın ərazi bütövlüyünü dəstəkləyirik və istəyirik ki, bu məsələ sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın. Mən həmçinin bildirdim ki, ölkələrimiz arasında beynəlxalq təşkilatlarda, BMT-də, Avropa Şurasında məhsuldar əməkdaşlıq aparılır. BMT Təhlükəsizlik Şurasına Albaniyanın namizədliyinə, o cümlədən ATƏT-in sədrliyinə dəstək verilməsi ilə bağlı müraciət etdim. Əlbəttə ki, namizədliyə gəldikdə bizim əməkdaşlığımız bu baxımdan gələcəkdə də davam etdirilməlidir.

Digər məsələlərə gəldikdə mən cənab Prezidentə bildirdim ki, Kosovo Albaniya üçün çox əhəmiyyətlidir və bu, nəinki sabitlik, həm də bütöv regionun tərəqqisi üçün vacibdir. Parlamentlərarası əməkdaşlığa gəldikdə Albaniya və Azərbaycan arasında dostluq qrupları fəaliyyət göstərir. Bu istiqamətdə atılacaq addımlar çox ola bilər. İstərdik ki, parlamentlərimiz bir-biri ilə sıx əməkdaşlıq etsinlər.

Yekun olaraq bildirmək istəyirəm ki, bizim ikitərəfli münasibətlərimizə gəldikdə gedəcəyimiz yol və əldə edəcəyimiz nəticələr çoxdur. Buna görə mən dostluq əlaqələrimizə, ölkələrimiz arasında münasibətlərə çox yaxşı gələcək arzu edirəm.

Cənab Prezident, gəldiyinizə görə çox sağ olun. Bir daha Albaniyaya xoş gəlmisiniz. Çox sağ olun, cənab Prezident.

* * *

Sonra Azərbaycan dövlətinin başçısı çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, dəvətə və göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Mən gözəl ölkənizə ilk dəfə səfər edirəm və burada olmağımdan çox məmnunam. Əminəm ki, bu səfər Albaniya-Azərbaycan əlaqələrinin inkişafına güclü təkan verəcək. Biz Sizinlə bu gün təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik və əmin olduğumuzu bildirdik ki, gələcək yaxın əməkdaşlıq üçün çox gözəl imkanlar vardır.

Siyasi dialoqa gəldikdə Albaniya prezidentləri əvvəlki illərdə Azərbaycana dəfələrlə səfər etmişdilər. Bu il keçmiş prezident Meta Azərbaycanda səfərdə idi. Eyni zamanda bu ilin aprel ayında Baş nazir Edi Rama da bizim qonağımız idi. Bu gün mənim səfərim onu göstərir ki, siyasi dialoqun çox gözəl təzahürləri var və çox güclü dinamizm var. Yəni bu sıx siyasi təmaslar, əlbəttə, bizim niyyətimizi, bir-birimizə olan marağı göstərir, eyni zamanda imkan verir ki, çox önəmli məsələlər müzakirə edilsin.

Beynəlxalq təşkilatlardakı uğurlu əməkdaşlığımız da bizim əlaqələrimizi gücləndirir. Siz qeyd etdiniz ki, Albaniya həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bu dəstək həmişə qarşılıqlı olub, biz bunu çox yüksək qiymətləndiririk. Həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsi dövründə Albaniya rəsmilərinin bəyanatlarını, Azərbaycanın ərazi bütövlüyünə göstərilən dəstəyi biz çox yüksək qiymətləndiririk.

Biz İkinci Qarabağ müharibəsinin nəticəsi olaraq öz əzəli torpaqlarımızı işğalçılardan azad etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik. Siz BMT Təhlükəsizlik Şurasının qətnamələrinə toxundunuz. Qeyd etməliyəm ki, bu qətnamələr 1993-cü ildə qəbul olunmuşdur. Ancaq bu qətnamələr 27 il ərzində icra edilmirdi. Ermənistan bu qətnamələrin icrasına maraq göstərmirdi, faktiki olaraq məhəl qoymurdu, beynəlxalq ictimaiyyət, beynəlxalq birlik isə sadəcə olaraq buna göz yumurdu və Ermənistana hər hansı bir sanksiya tətbiq edilməmişdir. Baxmayaraq ki, dəfələrlə Azərbaycan məsələ qaldırmışdır ki, Ermənistana qarşı sanksiyalar tətbiq edilsin, Ermənistan cəzalandırılsın. Çünki Azərbaycan ərazisinin 20 faizini işğal etmək böyük cinayətdir və işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparmaq hərbi cinayətdir. Orada törədilmiş dağıntılar faktiki olaraq o torpaqları tamamilə cansız edib. Mən Sizə məlumat verdim ki, ermənilər işğal dövründə 67 məsciddən 65-ni yerləyeksan etmişlər, qalan iki məsciddə isə heyvan - inək, donuz saxlamışlar və bütün müsəlmanların hisslərinə toxunmuşlar.

Biz bu məsələni təkbaşına həll etdik, ədaləti bərpa etdik və azad edilmiş torpaqlarda indi Azərbaycan bayrağı dalğalanır. Biz bu torpaqlara qayıtmışıq və bu torpaqlara həyat qayıdır. Xalqımız, dövlətimiz üçün əsas olan məsələdə ölkənizin bizə dəstək verməsi, əlbəttə ki, bizim üçün çox önəmlidir və bir daha buna görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Mən Sizin fikrinizə qoşuluram ki, iqtisadiyyat və sənaye üzrə yaradılmış müştərək işçi qrupu tezliklə birinci iclasını keçirməlidir. Çünki müzakirə ediləsi məsələlər çoxdur. Biz bu gün Sizinlə qaz sahəsində əməkdaşlıq barədə danışdıq, həm əldə edilmiş nailiyyətlər, həm də görüləcək işlər haqqında fikir mübadiləsi apardıq. Ancaq əməkdaşlıq üçün enerji sektorundan başqa da çox yaxşı imkanlar var - qarşılıqlı sərmayə qoyuluşu, Albaniya və Azərbaycan şirkətlərinin birgə fəaliyyəti, birgə müəssisələrin yaradılması, turizm, kənd təsərrüfatı, müasir texnologiyalar sahələri. Bilirəm ki, bütün bu sahələr Sizin ölkəniz üçün də və bizim üçün də prioritet təşkil edir. Ona görə, əminəm ki, biz bu istiqamətlər üzrə inamla addımlayacağıq.

O ki qaldı qaz təchizatı məsələlərinə, Azərbaycan və Albaniya TAP layihəsinin üzvləridir və "Cənub qaz dəhlizi"nin icrasında bizim ölkələrimiz çox önəmli rol oynayıblar. Azərbaycanın və Avropa İttifaqının sədrliyi ilə bu günə qədər keçirilmiş "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının bir çox toplantılarında Albaniya nümayəndələri həmişə çox fəal iştirak etmişlər. Bu gün Azərbaycan qazı Avropanın enerji təhlükəsizliyinə də öz töhfəsini verir. Bu ilin iyul ayında Azərbaycanla Avropa Komissiyası arasında enerji sahəsində strateji əməkdaşlıq üzrə anlaşma memorandumu imzalanmışdır. Həmin Memorandum əsasında biz 2027-ci ilə qədər Avropaya gedən qaz təchizatını iki dəfə artırmaq fikrindəyik. Təbii ki, o qaz Albaniya ərazisindən keçəcək, beləliklə, Avropanın enerji təhlükəsizliyinə əlavə dəstək və töhfə veriləcəkdir.

Bizim qaz ehtiyatlarımız çox zəngindir. Hazırda həm TAP, həm TANAP qaz kəmərlərinin iki dəfə genişləndirilməsi məsələsi müzakirə olunur. Yəni bu layihə - "Cənub qaz dəhlizi" cəmi iki ilə yaxındır ki, istismardadır. Amma artıq "Cənub qaz dəhlizi"nin ayrılmaz hissəsi olan bu hər iki kəmərin genişləndirilməsi müzakirə olunur. Yəni bu, onu göstərir ki, buna böyük ehtiyac var, tələbat var. Azərbaycan Avropa İttifaqı rəsmiləri tərəfindən artıq etibarlı tərəfdaş kimi tanınır və qiymətləndirilir. Əlbəttə ki, biz də bu məsuliyyəti yaxşı başa düşürük.

Eyni zamanda biz Sizinlə bu gün Albaniyada qaz təsərrüfatının inkişafına verə biləcəyimiz töhfə haqqında da danışdıq. Bu məsələ ilə bağlı bizim fikirlərimiz var. Albaniyada bu günə qədər qaz şəbəkəsi yaradılmamışdır. Azərbaycan bu sahədə də investor kimi iştirak edə bilər və biz buna hazırıq. Bu gün bu məsələni və energetika sahəsi ilə bağlı olan digər məsələləri bundan sonra da müzakirə edəcəyik.

Daha bir məsələyə də toxunmaq istəyirəm, Azərbaycanın NATO ilə sıx əməkdaşlıq platforması var. Biz uzun illər Əfqanıstanda NATO-nun əməliyyatlarında fəal iştirak etmişik. Demək olar NATO-ya üzv olmayan ölkələr arasında birincilər sırasında idik ki, biz sülhməramlı missiyaya qoşulduq. Biz Əfqanıstandan çıxan son iki ölkə arasındayıq - son iki ölkə Türkiyə və Azərbaycan idi. Qalan bütün NATO üzvləri bizdən qabaq oradan çıxmışdılar. Yəni demək istəyirəm ki, bu da bizim məsuliyyətimizin təzahürüdür. Albaniya da NATO-nun üzvü kimi NATO-Azərbaycan əlaqələrinə həmişə böyük dəstək vermişdir. Buna görə də mən Sizə minnətdaram.

Çıxışımın sonunda mətbuat qarşısında Sizi Azərbaycana rəsmi səfərə dəvət etmək istəyirəm. Dəvətə və qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

## Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyaya dövlət səfəri

# Azərbaycan-Albaniya əlaqələrinin inkişafına güclü təkan

## "Mother Albania" abidəsini ziyarət





Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tiranada "Mother Albania" abidəsini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev abidənin önünə əklil qoydu. Məlumat verildi ki, Milli Qəhrəmanlar xiyabanında yerləşən on iki metrlik "Mother Albania" abidəsi 1971-ci ildə ucaldılıb. Nəhəng abidə Albaniya uğrunda canını qurban verərək həlak olmuş əsgərləri qoruyan bir ananı təcəssüm etdirir. Ana əlində dəfnə çələngi və ulduz tutub. Abidə üçmetrlik postament üzərində ucaldılıb. Postamentin üzərində "Vətən şəhidlərinə əbədi eşq olsun!" sözləri yazılıb. Sonra dövlətimizin başçısı şəhərin mənzərəsini seyr etdi.





## Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyanın Baş naziri Edi Rama ilə təkbətək görüşü olub





Noyabrın 15-də Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu, fəal siyasi dialoqun həyata keçirildiyi bildirildi.

Söhbət zamanı Albaniyanın Baş naziri Edi Ramanın bu ilin aprelində Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi işində önəmi qeyd olundu. İqtisadi və enerji sahələrində əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin şərəfinə Albaniyanın Baş naziri tərəfindən nahar verilib

Noyabrın 15-də Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Albaniya Respublikasının Baş naziri Edi Rama tərəfindən nahar verilib.

## Prezident İlham Əliyevin Albaniyaya dövlət səfəri başa çatıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasına dövlət səfəri noyabrın 15-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Tirana şəhərinin Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını rəsmi şəxslər yola saldılar.

## Azərbaycanın və Rusiyanın Baş nazirləri Bakıda keçiriləcək Regionlararası Forumda iştirak edəcəklər

Noyabrın 17-də Bakıda XI Azərbaycan-Rusiya Regionlararası Forumu keçiriləcək. Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Baş nazirləri Əli Əsədov və Mixail Mişustin forumda iştirak edəcəklər.

Forumda iqtisadi, nəqliyyat, aqrar-sənaye, humanitar əlaqələr, kiçik və orta sahibkarlıq sahəsində əməkdaşlıq, qarşılıqlı investisiya və təhsillə bağlı məsələlər müzakirə olunacaq.

Həmçinin müxtəlif sahələrdə əməkdaşlığa dair sənədlərin imzalanacağı gözlənilir.

Tədbirdə Azərbaycan və Rusiya hökumətlərinin üzvləri, işgüzar dairələrin təmsilçiləri, habelə hər iki ölkənin müxtəlif bölgələrinin nümayəndələri iştirak edəcəklər.

## Baş nazir Əli Əsədov Belarusun Baş nazirinin müavini ilə görüşüb

Noyabrın 15-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Belarus Respublikasının Baş nazirinin müavini İqor Petrişenko ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Belarus arasında müxtəlif sahələrdə münasibətlərin inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin perspektivləri müzakirə edilib.



## Azərbaycan-Rusiya Birgə Demarkasiya Komissiyasının növbəti iclası keçirilib

Noyabrın 14-15-də Dərbənd şəhərində Azərbaycan-Rusiya Birgə Demarkasiya Komissiyasının 12-ci iclası keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan-Rusiya Birgə Demarkasiya Komissiyasının 2022-ci il üzrə planlaşdırılan bütün tədbirlərinin uğurla yerinə yetirildiyi məmnunluqla qeyd edilib, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədinin beynəlxalq hüquqi rəsmiləşdirilməsinin gedişatı barədə müzakirə aparılıb, habelə komissiyanın 2023-cü il üçün iş planına baxılıb və təsdiq edilib.

Görüş qarşılıqlı anlaşma və konstruktiv dialoq ruhunda keçirilib. Birgə komissiyanın növbəti iclasının keçirilmə məkanı və tarixləri diplomatik kanallar vasitəsilə razılaşdırılacaq.

# Azərbaycanın müdafiə naziri Gürcüstanın Milli Müdafiə Akademiyasında olub





Gürcüstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov noyabrın 15-də Qori şəhərindəki David Ağmaşenebeli Milli Müdafiə Akademiyasını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, müdafiə naziri akademiyanın rektoru briqada generalı Mamia Balaxadze ilə görüşüb. Görüşdə hərbi təhsil sahəsində qarşılıqlı təcrübə mübadiləsi, eləcə də bu sahənin inkişaf perspektivləri müzakirə olunub.

Sonra general-polkovnik Z.Həsənov akademiyanın "Şərəf kitabı"nı imzalayıb.

Milli Müdafiə Akademiyası ilə tanışlıqdan sonra general-polkovnik Z.Həsənov kursantların idman yarışını izləyib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.

# Estoniya ilə əməkdaşlıq münasibətləri müzakirə olunub

Noyabrın 15-də Milli Məclisin Estoniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Jalə Əhmədova ölkəmizdə səfərdə olan Estoniya Riigikoqunun (parlamentinin) Estoniya-Azərbaycan parlamentlərarası qrupunun sədri Sven Sester ilə görüşüb.



Jalə Əhmədova qonaqları salamlayaraq onları Milli Məclisdə görməkdən məmnunluğunu ifadə edib. O, ölkələrimiz arasında mövcud olan əməkdaşlıq münasibətlərindən söz açıb, bu əlaqələrdə qarşılıqlı səfərlərin əhəmiyyətindən danışıb.

Milli Məclisin deputatı 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranan yeni əməkdaşlıq imkanları, Azərbaycanın regionda sülhün və sabitliyin təmin olunması naminə həyata keçirdiyi təşəbbüslər barədə məlumat verib, həmçinin Azərbaycan və Estoniya arasında iqtisadiyyat, mədəniyyət və təhsil sahələrində əlaqələrin genişləndirilməsi potensialı ilə bağlı fikirlərini bölüşüb.

Estoniya parlamentinin Azərbaycanla parlamentlərarası qrupunun sədri Sven Sester qonaqpərvərliyə görə təşəkkür edib, ölkəmizlə münasibətləri, parlamentlər səviyyəsində əməkdaşlığı çox yüksək qiymətləndirdiklərini söyləyib. Qonaq Azərbaycanla Estoniya arasında əməkdaşlığın bundan sonra da xalqlarımızın rifahının daha da yüksəlməsinə xidmət edəcəyini bildirib.

Görüşdə iştirak edən Azərbaycan-Estoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü İlham Məmmədov və Azərbaycanın Estoniyadakı səfiri Anar Məhərrəmov iki ölkə arasında əməkdaşlığın indiki vəziyyəti və gələcək inkişaf perspektivlərinə dair fikirlərini səsləndiriblər.

Söhbətdə 44 günlük Vətən müharibəsində zəfər qazanan Azərbaycanın bölgədə sülhün möhkəmləndirilməsi üçün gördüyü işlərdən, aparılan sülh danışıqlarından və əldə olunan razılaşmalardan irəli gələn məsələlərdən danışılıb və tərəfləri maraqlandıran digər mövzularla bağlı fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan əsilli fransızlar Fransa Senatı qarşısında etiraz aksiyası keçiriblər

Fransada bəzi siyasətçilərin ölkəmizə qarşı qərəzli mövqeyi Azərbaycan əsilli fransızların səbir kasasını daşırıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan əsilli fransızlar senatorların qərəzli mövqeyinə etiraz olaraq Fransa Senatının binası qarşısında sakit etiraz aksiyası keçiriblər.

Fransa Senatında beş senator ölkəmizə qarşı sanksiyaların tətbiq olunmasına dair qətnamə layihəsi təqdim etməklə anti-Azərbaycan mövqelərini bir daha göstərib. Bu gün Senatda qətnamə layihəsi müzakirəyə çıxarılacaq. Fransanın Azərbaycan əsilli vətəndaşları isə bu ölkədə bir qrup ermənipərəst deputatın sosial şəbəkələrdə, eləcə də Fransa parlamentinin aşağı və yuxarı palatalarında bəzi deputatların çıxışlarından təngə gəldikləri üçün Fransa Senatının binası qarşısında sakit etiraz aksiyası keçirməyi qərara alıblar.




Senatın binası qarşısında təşkil olunan etiraz aksiyasının iştirakçıları "Ədalət tələb edirik!", "Terrorizmə YOX deyirik!", "Senat ədalətli olmalıdır!", "Cənubi Qafqazda sülhün bərqərar olması üçün Fransa neytral olmalıdır!", "Erməni terrorizminə son qoyun!", "Erməni yalanlarına uymayın!" kimi şüarlar nümayiş etdirib və səsləndiriblər. İştirakçılar əllərində Ermənistan silahlı qüvvələri tərəfindən azərbaycanlılara qarşı törədilmiş qətliamları, Xocalı soyqırımını əks etdirən fotoşəkilləri, o cümlədən amansızlıqla qətlə yetirilmiş dinc azərbaycanlı qadın və uşaqların fotoşəkillərini nümayiş etdiriblər.

Avropa Azərbaycan Konqresi İdarə heyətinin üzvləri Zaur Sadıqbəyli və Mehriban Ovçuyeva Fransadakı Azərbaycan icması adından çıxış edərək, fransız senatorlarını ədalətli olmağa, balanslı debatlar aparmağa çağırıblar. Fransada bütün medianın, hətta "Public Senat" televiziya kanalında gedən debatların birtərəfli olduğunu pisləyiblər. Bildiriblər ki, Azərbaycan və Ermənistanın münasibətlərinə dair müzakirələr, hökumətə suallar, hətta qətnamələr, sistemli şəkildə deyilən fikirlər yalnız erməni lobbisinin mövqeyini əks etdirir. Vurğulayıblar ki, Brüno Rötayo (Bruno Retailleau) və onun bir neçə həmkarının təklif etdiyi qətnamə layihəsi ədalətsizdir və reallığı əks etdirmir. Bu, erməni lobbisi və onların havadarlarının Azərbaycana qarşı apardıqları qərəzli kampaniyadır. Soydaşlarımız bir daha diqqəti Fransada Azərbaycan əsilli fransızlara qarşı media blokadasına çəkərək, bunun demokratiyaya zidd olduğunu bildiriblər. Azərbaycanın yalnız sülhü təşviq etdiyi vurğulanıb.

Aksiya iştirakçıları fransalı senatorların Ermənistan-Azərbaycan münaqişəsinə tamamilə birtərəfli və qərəzli yanaşmalarına, eləcə də qətnamə təklifini irəli sürən beş senatorun yalnız bir tərəfin - ermənilərin maraqlarını müdafiə etmələrinə narazılıqlarını bildirərək, onların qərəzli münasibətlərini qətiyyətlə pislədiklərini və rədd etdiklərini vurğulayıblar. İştirakçılar Cənubi Qafqazda davamlı sülhün bərqərar olması üçün Fransanın bitərəf qalmasının vacibliyini xatırladıblar. Senat üzvlərinin belə düşünülməmiş addımının ciddi nəticələr doğuracağını, regionda münaqişəni yenidən alovlandıra biləcəyini qeyd ediblər. Etirazçılar bəzi fransız siyasətçilərin irqçi dünyagörüşünün və şəxsi ambisiyalarının, eləcə də erməni əsilli fransızların tutduqları mövqenin təhlükəli olduğunu və Cənubi Qafqazda gələcək eskalasiyalara zəmin yarada biləcəyini vurğulayaraq, onları dərindən düşünməyə çağırıblar.

Diqqətə çatdırılıb ki, Azərbaycan regionda davamlı sülhə nail olmaq üçün bütün səylərini səfərbər etdiyi vaxtda fransız siyasətçilər və parlamentarilər təhlükəli mövqeləri ilə regionda sülhün bərpa edilməsində maraqlı olmadıqlarını göstərir və qərəzli çıxışları ilə vəziyyəti daha da mürəkkəbləşdirirlər.

Qeyd edilib ki, Fransanın birtərəfli davranışdan əl çəkməsi və daha tarazlaşdırılmış mövqe tutması çox vacibdir. Birtərəfli ittihamlar və sanksiyalarla vəziyyəti gərginləşdirmək olmaz. Eyni zamanda vurğulanıb ki, Azərbaycana qarşı iqtisadi təzyiq siyasəti sadə avropalılara ancaq yeni problemlər və çətinliklər gətirər. Bu cür təhdidlər, heç şübhəsiz, sülh səyləri ilə uyğun gəlmir.

Həmçinin qeyd edilib ki, Fransada keçirilən seçkilərə kifayət qədər təsir imkanları olan erməni əsilli fransızların böyük əksəriyyəti Ermənistana heç vaxt ayaq basmayıblar. Qətnamənin müəllifləri sülhə nail olmaq üçün tərəfləri qarşılıqlı yaxınlaşmaya sövq etmək əvəzinə Ermənistanı müasir fransız silahları ilə silahlandırmağa çağırırlar.

Sonda diqqətə çatdırılıb ki, Fransa Senatı qərəzli qətnamələr qəbul etmək əvəzinə regionda sülhə, sabitliyə və tərəqqiyə xidmət edən, ölkənin maraqlarına uyğun gələn və regionun davamlı inkişafına töhfə verəcək fəaliyyətlərlə məşğul olmalıdır.

## Beynəlxalq Sosial Təminat Assosiasiyası Azərbaycanın sosial islahatlar təcrübəsini yüksək qiymətləndirir

Azərbaycanda son illər sosial sahədə, o cümlədən sosial təminat sistemində aparılan islahatların uğurlu nəticələri var və Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA) Azərbaycanın sosial islahatlar təcrübəsini yüksək qiymətləndirir.



Bunu ölkəmizdə səfərdə olan BSTA-nın prezidenti Məhəmməd Azman onunla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən görüşdə vurğulayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev M.Azmanı bu günlərdə BSTA prezidenti seçilməsi münasibətilə təbrik edib, ona uğurlar arzulayıb. Nazir BSTA-nın qlobal müstəvidə sosial təminat sistemlərinin təkmilləşdirilməsi işlərinə verdiyi töhfələri qeyd edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycanda son illər aparılan sosial islahatlar, sosial ödənişlərdəki ciddi artımlar, xidmətlərin elektronlaşdırılması, proaktiv təyinat mexanizmlərinin qurulması istiqamətində əldə olunan uğurlar diqqətə çatdırılıb.

Qeyd edilib ki, aparılan islahatlara beynəlxalq səviyyədə yüksək qiymət verilir. Bu il nazirliyin qurumları 11 beynəlxalq mükafatla təltif ediliblər. O cümlədən DOST Agentliyi və Dövlət Sosial Müdafiə Fondu (DSMF) BSTA tərəfindən də 4 mükafat və bu günlərdə Mərakeşdə keçirilən Dünya Sosial Təminat Forumunda üç Mükəmməllik Sertifikatı ilə təltif olunub. Fond həmçinin Böyük Britaniyanın "2022-ci ilin Beynəlxalq Dövlət Qurumu" ali mükafatına layiq görülüb. Nazirliyin qurumlarına 2021-2022-ci illərdə 12 beynəlxalq ISO sertifikatı təqdim edilib.

2019-cu ilin iyun ayında BSTA-nın Avropa Forumu Bakıda keçirilib. Forum çərçivəsində nazirliyin təqdim etdiyi layihələr müsbət dəyərləndirilərək xüsusi mükafatlara layiq görülüb.

Görüşdə BSTA ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, o cümlədən Dövlət Sosial Müdafiə Fondu arasındakı uğurlu əməkdaşlıqdan bəhs olunub. Bu günlərdə DSMF sədrinin BSTA-nın büro üzvü və komitə sədri seçilməsinin assosiasiya ilə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə edilib. Gələcək əməkdaşlığa, habelə DOST Agentliyinin də BSTA-ya üzv olması istiqamətində aparılan işlərə dair fikir mübadiləsi aparılıb.

## Şuşa şəhəri ilə Cənubi Koreyanın Andonq, Perunun Kusko, Yunanıstanın Korinf tarixi şəhərləri arasında əməkdaşlığa dair niyyət protokolu imzalanıb

Noyabrın 14-də Cənubi Koreyanın Andonq şəhərində Tarixi Şəhərlər Liqasının 18-ci Dünya Konfransının açılış mərasimi keçirilib.



Konfransda Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti və Azərbaycan Respublikasının Koreyadakı səfirliyinin məsul şəxsləri də iştirak edirlər.

AZƏRTAC xəbər verir ki, noyabrın 16-dək keçiriləcək konfrans "İcmaya əsaslanan gələcəyə yönəlmiş tarixi şəhər" mövzusuna həsr olunub. Konfrans çərçivəsində tarixi şəhərlər sayılan Cənubi Koreyanın Andonq, Azərbaycanın Şuşa, Perunun Kusko, Yunanıstanın isə Korinf şəhərləri arasında əməkdaşlığa dair dördtərəfli niyyət protokolu imzalanıb.

Həmçinin konfransda iştirak edən Türkiyənin Bursa şəhərinin Osmanqazi bələdiyyəsinin başçısı Mehmet Dündar və Tarixi Şəhərlər Liqasının baş katibi, Yaponiyanın Kyoto şəhərinin meri Daisaku Kadokava ilə də ikitərəfli görüşlər keçirilib.

# "Yüksəliş" müsabiqəsinin qalibi Prezident Administrasiyasında yüksək vəzifəyə təyin edilib

"Yüksəliş" müsabiqəsinin qalibi Tural Feyzullayev Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin Hüquqi təminat və təhlil sektorunun müdiri təyin olunub.

AZƏRTAC xəbər verir ki, Tural Feyzullayev 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq ixtisası üzrə bakalavr pilləsini, 2013-cü ildə Fransanın Tuluz Universitetinin Beynəlxalq və Avropa hüququ üzrə magistr pilləsini, 2014-cü ildə isə həmin universitetin Beynəlxalq biznes hüququ üzrə magistr pilləsini bitirib.

Tural Feyzullayev əmək fəaliyyətinə 2011-ci ildə "Azərsun Holdinq" MMC-də araşdırma mütəxəssisi kimi başlayıb, 2015-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Bankında hüquq məsləhətçisi kimi davam etdirib, 2016-2020-ci illərdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasında hüquqşünas, aparıcı və baş hüquqşünas vəzifələrində, 2018-ci ildən 2020-ci ilədək isə Hüquqi təminat idarəsinin rəisi vəzifəsində çalışıb.

2020-2021-ci illərdə Tural Feyzullayev Azərbaycan Respublikasının Mərkəzi Bankında Hüquq departamentinin direktor müavini - Maliyyə bazarlarının hüquqi təminatı şöbəsinin rəisi vəzifəsində işləyib, 2021-ci ildən etibarən "AccessBank"da Hüquq və komplayens departamentinin rəhbəri vəzifəsində çalışıb.

Tural Feyzullayev Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılmasına verdiyi töhfəyə və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması sahəsində səmərəli fəaliyyətinə görə 2018-ci ildə "Tərəqqi" medalı ilə təltif edilib, 2021-ci ildə birinci "Yüksəliş" müsabiqəsinin qalibi olub.

O, ingilis və türk dillərini sərbəst, fransız dilini isə yaxşı bilir.

1992 2022

YENİ AZƏRBAYCAN PARTİYASI

milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır

30



# Müstəqil dövlətçiliyin siyasi istinadgahı

Yeni Azərbaycan Partiyasının yaradılmasından 30 il ötür. Bu zaman ərzində YAP-ın keçdiyi yola nəzər salsaq, onun əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş ümumxalq partiyası kimi Azərbaycan dövlətinin və xalqının həyatında mühüm tarixi rol oynadığının şahidi oluruq. Ötən illər ərzində YAP-ın əldə etdiyi uğurlar partiyanın qarşısına qoyduğu məqsədlərin xalqımızın maraqlarına söykənməsi, ölkəmizin daxili və xarici siyasətinin həyata keçirilməsində yaxından iştirak etməsi ilə sıx şəkildə bağlıdır. Sübut olunmuşdur ki, ictimai-siyasi, sosial-iqtisadi və mədəni-humanitar sahələrin inkişafı, xarici siyasətlə bağlı partiyanın qarşısına qoyduğu vəzifələr Heydər Əliyev yoluna əsaslanmaqla layiqincə yerinə yetirilmişdir.

1992-ci il noyabrın 21-də təsis edilməsindən keçən qısa müddət ərzində YAP-ın ümumxalq partiyasına çevrilməsi ona Heydər Əliyev kimi müdrik şəxsiyyətin rəhbərlik etməsindən və öz ətrafında əhalinin bütün təbəqələrindən olan insanları birləşdirməsindən, həmin dövrdə Azərbaycanı üzləşdiyi ağır böhrandan xilas etmək missiyasını öz üzərinə götürməkdən irəli gəlmişdir. Partiya yaranarkən "Yeni, müstəqil Azərbaycan uğrunda" şüarı onun əsas devizi olmuşdur ki, bu da təsadüfi deyildir. Çünki 1990-cı ilin əvvəlində Azərbaycanın yenidən dövlət müstəqilliyini əldə etməsi dövlət hakimiyyəti, eləcə də siyasi partiyalar qarşısında ciddi vəzifələr qoyurdu. Əsas prinsipial məqsəd Azərbaycanın müstəqilliyinin dönməzliyini təmin etməkdən, demokratik siyasi sistemi və bazar iqtisadiyyatı münasibətlərini formalaşdıraraq inkişaf etdirməkdən ibarət idi. Təəssüflər olsun ki, həmin dövrdə hakimiyyətdə olan dairələr göstərilən vəzifələrin həyata keçirilməsi üçün yaranmış tarixi-siyasi şəraiti obyektiv şəkildə qiymətləndirə bilmədilər. Onların naşı siyasət aparmalarının nəticəsində Azərbaycan xalqı illərdir böyük arzusunda olduğu dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdi.

YAP-ın yaradılmasının bəyan edilməsi hətta beynəlxalq aləmdə böyük maraqla qarşılandı ki, bunun da bir çox səbəbləri var idi. Çünki mühüm geosiyasi məkanda yerləşən Azərbaycanda baş verən hadisələr dünya dövlətləri tərəfindən ciddi şəkildə izlənilirdi. Məlumdur ki, həmin dövrdə respublikamızda qeyri-müəyyən ictimai-siyasi vəziyyət hökm sürürdü. Ümummilli birlik və vətəndaş həmrəyliyi demək olar ki, yox dərəcəsində idi, ictimai-siyasi proseslər idarəolunmaz xarakter almışdı, Ermənistanın hərbi təcavüzü və respublikamızın suverenliyini təhdid edən separatçı meyillər güclənirdi. Buna görə də Heydər Əliyev kimi müdrik şəxsiyyətin sədri olduğu YAP-ın böhran vəziyyətində olan Azərbaycanın xilası ilə bağlı mövqeyi xalqımız tərəfindən ümid və inamla qarşılanmış, hərtərəfli müdafiə olunmuşdur. Heydər Əliyevin respublikamızda və xarici ölkələrdə nəşr edilən KİV-ə verdiyi müsahibələrə böyük diqqət yetirilirdi. Dünyanın nüfuzlu politoloqları öz şərhlərində Ulu Öndərin fikirlərini Azərbaycanı üzləşdiyi vəziyyətdən çıxara biləcək rasional yanaşma kimi dəyərləndirirdilər.

YAP yaranarkən onun əsas məqsədi yalnız hakimiyyətə gəlməkdən ibarət deyildi. Bununla bağlı olaraq Heydər Əliyev partiyanın I Qurultayındakı çıxışında bildirmişdir: "Beləliklə, biz 1992-ci ilin noyabr ayında Naxçıvanda partiyamızı - onun proqramı və nizamnaməsi haqqında burada deyildi - ağır, çətin bir şəraitdə yaratdıq. Nizamnamədə də var, bu partiya hakimiyyət uğrunda mübarizə aparan bir partiya kimi yaranmadı. Biz partiyanın nizamnaməsində yazdıq ki, partiya Azərbaycanın bu ağır dövründə ölkəmizin ictimai-siyasi həyatında iştirak etmək və Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün yaranır, bu partiya parlament tipli bir partiyadır. Yəni biz tamamilə demokratiya yolu ilə gedirdik. ...Bizim partiya sağlam düşüncə, sağlam fikir - xalqı birləşdirmək və Azərbaycanın o mürəkkəb həyatında ölkənin problemlərinin həll olunmasında iştirak etmək, öz xidmətlərini göstərmək məqsədilə yarandı". Partiyanın proqramında əksini tapmış vəzifələrin yerinə yetirilməsi və ideoloji prinsiplərə riayət edilməsi vasitəsilə Azərbaycanın üzləşdiyi acınacaqlı vəziyyətdən çıxış yolları göstərilirdi. Respublikamızın şəhər və rayonlarında tez bir vaxtda YAP-ın yerli şöbələrinin yaradılması və onun üzvlərinin sayının dinamik artımı, xüsusilə xalqımızın intellektual təbəqəsini təmsil edən insanların partiya sıralarına kütləvi şəkildə qoşulması nəticəsində YAP Azərbaycanın siyasi sistemində güclü sosial bazası olan təşkilat kimi böyük nüfuz qazanmağa başladı.

YAP-a böyük uğur gətirən əsas xüsusiyyətlərdən biri yeni iqtisadi və siyasi sistemə keçidlə bağlı partiyanın tutduğu mövqeyi ilə bağlı olmuşdur. Məlumdur ki, 1990-cı ilin əvvəllərində Azərbaycanda demokratik siyasi sistemə və bazar iqtisadiyyatı münasibətlərinə keçidlə bağlı müxtəlif yanaşmalar mövcud idi. Bəzi ictimai-siyasi təşkilatlar həmin keçidin inqilabi yolla reallaşdırılmasının tərəfdarı kimi çıxış edirdilər ki, bu da cəmiyyətdə kəskin siyasi-iqtisadi böhranın və qarşıdurmaların yaranmasına gətirib çıxara bilərdi. Lakin onlardan fərqli olaraq YAP cəmiyyətin inkişaf qanunauyğunluğuna əsaslanıb yeni iqtisadi-siyasi sistemə keçidin təkamül və islahatlar yolu ilə mümkünlüyünün vacib olduğunu bəyan edirdi və bu yanaşma partiyanın əsas ideoloji prinsiplərindən biri idi. Buna görə də Heydər Əliyev həm Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri olarkən, həm də sonrakı dövrdə - Azərbaycan Respublikasının Prezidenti kimi xalqımızın müstəqil dövlətçilik ənənələrinin qorunması, eyni zamanda yeni iqtisadi-siyasi sistemə səmərəli keçidin təmin edilməsi üçün təkamülə və varislik prinsipinə üstünlük vermişdir.

YAP yaranmamışdan əvvəl Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilmiş Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin sessiyasında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası, Ali Sovetinin isə Ali Məclis adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin rəmzlərindən olan üçrəngli dövlət bayrağının Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul olunmuşdur. Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması və Azərbaycanın dövlət gerbinin hazırlanması məqsədilə müsabiqənin elan edilməsi haqqında vəsatət qaldırılmışdır.

1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı xalqımızın həyatında böyük tarixi hadisə olmaqla yanaşı, həm də YAP-ın fəaliyyətində yeni inkişaf mərhələsinin bünövrəsini qoydu. YAP-ın proqramında öz əksini tapmış daxili və xarici siyasət, ideoloji məsələlərlə bağlı vəzifələrin yerinə yetirilməsi istiqamətində mühüm addımlar atıldı. Bu sahədə əldə olunmuş uğurlar partiyanın proqramında qarşıya qoyulmuş məqsəd və vəzifələrin obyektiv reallığa, dövrün tələblərinə əsaslandığını və ən başlıcası xalqımızın maraqlarını ifadə etdiyini göstərdi.

1993-cü ilin ortalarından başlayaraq Azərbaycanda müstəqil dövlət quruculuğunun tərkib hissəsi kimi genişmiqyaslı islahatlar aparıldı. Heydər Əliyevin YAP-a sədrliyi dövründə Azərbaycan dövlətinin bütün sahələrində böyük uğurlar əldə olundu. Hüquqi dövlət və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatı münasibətlərinin formalaşması və inkişafı istiqamətində mühüm addımlar atıldı. Daxili və xarici dairələrin təxribatlarının, destruktiv fəaliyyətlərinin qarşısı qətiyyətlə alınıb ictimai-siyasi sabitlik təmin olundu. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzkarlıq siyasətinin mahiyyətinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması və respublikamızın işğal olunmuş ərazilərinin azad edilməsi üçün fəal siyasi-diplomatik mübarizə aparıldı. Ölkəmizin təhlükəsizliyinin təmin edilməsi və Ermənistanın işğalçılıq siyasətinin qarşısının alınması üçün vahid komandanlığa malik olan Azərbaycanın Silahlı Qüvvələri yaradıldı.

Azərbaycanın siyasi sistemində demokratikləşmə prosesləri geniş vüsət aldı. 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyası qəbul edildi. Çoxpartiyalı siyasi sistem formalaşaraq inkişaf etdi, fikir və söz azadlığının təmin edilməsi üçün mühüm addımlar atıldı. Heydər Əliyevin azərbaycançılıq məfkurəsini milli ideologiya səviyyəsinə qaldırması ictimai münasibətlərin inkişafına keyfiyyətcə yeni xüsusiyyətlər gətirdi. Milli və dini münasibətlər azərbaycançılıq məfkurəsi əsasında formalaşaraq inkişaf etməyə başladı, milli birlik və vətəndaş həmrəyliyi yaradıldı.

Müharibə şəraitində yaşamasına və keçid dövründən irəli gələn obyektiv çətinliklərə baxmayaraq, iqtisadi sahədə böyük nailiyyətlər əldə olundu. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası sürətləndi və ölkəmizə xarici sərmayə qoyuluşunun həcmi ildənilə artmağa başladı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın yeni neft strategiyasının bünövrəsi qoyuldu. Azərbaycan Prezidentinin fərman və sərəncamları ilə əhalinin sosial rifahının gücləndirilməsi istiqamətində mühüm işlər görüldü. Ölkəmizdə elm, mədəniyyət və incəsənətin inkişafına dövlət səviyyəsində xüsusi diqqət göstərildi, bu sahədə çalışan insanların sosial məsələlərin həllinə böyük qayğı ilə yanaşıldı.

Heydər Əliyevin müdrik siyasəti nəticəsində əldə edilmiş uğurlar həm də YAP-ın proqramında qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsi demək idi. Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq 1995-ci il noyabrın 12-də keçirilmiş parlament seçkilərində və 1999-cu il dekabrın 12-də bələdiyyə seçkilərində YAP-ın qələbə qazanması partiyanın aparıcı siyasi qüvvə kimi ümumxalq partiyası olduğunu göstərdi. YAP-ın 1999-cu il dekabrın 20-21-də keçirilmiş I Qurultayında partiyanın təsis konfransında qəbul etdiyi proqram və Nizamnaməsi əlavə və dəyişikliklər edilməklə təsdiq olundu. YAP-ın müstəqil dövlət quruculuğu sahəsində əldə etdiyi uğurlar və seçkilərdəki qələbələri, Azərbaycanın dünya birliyində mövqeyinin möhkəmlənməsi partiyanın məqsədlərinin realist və praqmatik xarakter daşıdığından irəli gəlmişdir.

YAP-ın inkişafında ən mühüm əlamətdar hadisələr içərisində cənab İlham Əliyevin partiyanın I Qurultayında Partiya sədrinin müavini, II Qurultayında partiya sədrinin birinci müavini, III Qurultayında isə partiyanın sədri seçilməsi xüsusi yer tutur. Bundan sonra partiya yeni tarixi inkişaf mərhələsinə qədəm qoymuş, onun sosial və intellektual bazası daha da güclənmiş, xüsusilə gənclərin partiyaya üzv olması prosesi daha da sürətlənmişdir. Prezident seçkilərində YAP-ın namizədi kimi cənab İlham Əliyevin qələbə qazanması xalqımızın partiyanın sədrinə olan böyük inam və etimadından irəli gəlmişdir. Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyevin irəli sürdüyü "Müasir, qüdrətli və zəngin Azərbaycan naminə" çağırışı əsasında Azərbaycan davamlı inkişaf yolu ilə irəliləyərək böyük nailiyyətlər qazanmış, regionun aparıcı dövləti kimi dünya birliyində mövqeyini daha da möhkəmləndirmişdir.

Azərbaycan Prezidenti, YAP-ın Sədri İlham Əliyevin praqmatik və uzaqgörən siyasəti özündə ümummilli maraqları ehtiva etməklə müasir dövrün çağırışlarına cavab verir. Bunun nəticəsidir ki, cəmiyyətin bütün sahələrində əldə olunmuş uğurlar Azərbaycanı dünyaya modernləşmə yolu ilə inkişaf edən, güclü iqtisadi potensiala və inkişafa malik olan qüdrətli dövlət kimi tanıdır. Xarici siyasətdə əldə olunmuş uğurlar, regional və beynəlxalq əhəmiyyət daşıyan enerji-nəqliyyat layihələrinin reallaşmasında yaxından iştirakı, qlobal problemlərin həllinə həsr olunmuş beynəlxalq tədbirlərə evsahibliyi etməsi Azərbaycanın dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə təsir imkanlarını daha da artırır.

Ölkəmizin bütün sahələrinə diqqət yetirsək, davamlı inkişafın şahidi oluruq. Azərbaycan iqtisadi inkişaf göstəricilərinə görə, region dövlətləri arasında qabaqcıl yer tutur. İşsizlik və yoxsulluq səviyyəsinin aşağı salınması istiqamətində prinsipial addımlar atılır, əhalinin sosial rifahının yüksəldilməsi Prezident İlham Əliyevin apardığı siyasətin prioritet istiqamətlərindən birini təşkil edir. Regionların sosial-iqtisadi inkişafı məqsədilə xeyli sayda dövlət proqramlarının həyata keçirilməsi nəticəsində rayon, şəhər, qəsəbə və kəndlərdə müasir infrastruktur yaradılır. Davamlı inkişafın demoqrafik vəziyyətə müsbət təsir göstərməsinin nəticəsidir ki, əhalinin sayında dinamik artım baş verir.

Azərbaycanın sarsılmaz təməlini təşkil edən Heydər Əliyev yolunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və müasir dövrün çağırışlarından irəli gələn tələblərə obyektiv, yaradıcı şəkildə yanaşılması ölkəmizin tərəqqisinin əsasında dayanır. Bu proses ümummilli maraqların prioritetliyi, hüquqi dövlət və vətəndaş cəmiyyətinin inkişafı, xalq-hakimiyyət birliyi və demokratik dəyərlərin cəmiyyətdə özünə dərin kök salması kimi xüsusiyyətlərlə xarakterizə olunur. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquqlarının qorunması, dini-mədəni müxtəlifliyin təmin edilməsi, multikultural və tolerant ənənələrin inkişafı üçün hərtərəfli şəraitin yaradılması milli birliyi və vətəndaş həmrəyliyini möhkəmləndirir. Azərbaycan Şərq və Qərb sivilizasiyalarının qovuşduğu məkan kimi dünya mədəniyyətinin və sivilizasiyasının inkişafına mühüm töhfələr verir.

Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsində əldə olunmuş uğurlar parlaq təcəssümünü 44 günlük Vətən müharibəsində bir daha sübut etdi. Müharibə dövründə xalqımız Prezident İlham Əliyevin yüksək liderlik keyfiyyətlərinin, Müzəffər Ali Baş Komandan kimi qətiyyətli mövqeyinin və prinsipial diplomatik mübarizə apardığının şahidi oldu. Ötən illər ərzində Azərbaycan dövlətinin qazandığı uğurlar və dünya birliyində böyük nüfuzu, xalq-iqtidar birliyi Vətən müharibəsində şanlı qələbənin əldə edilməsində böyük rol oynamışdır. Azərbaycan müharibədə erməni faşizmini darmadağın etməklə öz suverenliyini qorumağa qadir qüdrətli dövlət olduğunu bütün dünyaya göstərdi.

Yüksək intellektual səviyyəyə malik olan, Vətənini sevən Azərbaycan gəncləri partiyanın fəaliyyətində yaxından iştirak edirlər. YAP-da onların bilik və bacarıqları yüksək qiymətləndirilir, dövlət və yerli idarəetmə orqanlarında lazımi səviyyədə təmsilçiliyinə böyük önəm verilir. Bundan əlavə, YAP-ın üzvü olan gənclərin yerli və ümumrespublika səviyyəsində, habelə xarici ölkələrdə keçirilən müxtəlif tədbirlərdə fəal iştirakı və çıxış etmələri partiyanın yüksək inkişaf perspektivlərinin olduğunu göstərir. YAP gender bərabərliyini təmin etməklə dövlət və yerli idarəetmə orqanlarında qadınların təmsilçiliyini diqqət mərkəzində saxlayır.

İnformasiya-Kommunikasiya texnologiyalarının inkişafının sürətlənməsi, qlobal səviyyədə keyfiyyətcə yeni siyasi və iqtisadi proseslərin baş verməsi, ölkəmizin sürətli inkişafı YAP-ın qarşısında yeni hədəflər və vəzifələr qoymuşdur. Bütün bunlar partiyanın 2021-ci il martın 5-də keçirilmiş VII Qurultayındakı çıxışlarda öz əksini tapmışdır. Prezident İlham Əliyev həmin qurultaydakı çıxışında yeni dövrün reallıqlarını nəzərə alaraq partiyanın qarşıdakı mərhələdə fəaliyyət istiqamətləri ilə bağlı bildirmişdir: "Bütün bunları nəzərə alaraq hesab edirəm ki, partiyamızın yeni proqramı da hazırlanmalıdır. Bu proqram yeni dövrlə bağlı bütün məsələləri özündə ehtiva etməlidir. İdarə Heyətinə tapşırıq verirəm ki, üç ay ərzində partiyamızın yeni proqramı hazırlansın və təqdim edilsin". Bundan irəli gələrək YAP-ın "Biz birlikdə güclüyük!" şüarı altında yeni proqramı işlənib hazırlanmış və partiyanın İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə təsdiq olunmuşdur.

Proqramda sosial-iqtisadi, ictimai-siyasi, mənəvi-mədəni, ordu quruculuğu, xarici siyasət, vətəndaş cəmiyyəti və digər sahələrin inkişafını nəzərdə tutan dəyər və meyarlar, prinsiplər, hədəflər və vəzifələr müəyyən edilmişdir. Onların yerinə yetirilməsi Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət kimi tərəqqisi, beynəlxalq aləmdə nüfuzunun daha da artması üçün hərtərəfli imkanlar yaradır. Partiya qarşıdakı dövr üçün fəaliyyət istiqamətlərini müəyyən edərkən Heydər Əliyevin siyasi kursuna söykənir ki, bunun da ciddi siyasi-ideoloji əsasları vardır. Çünki məhz bu halda hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti inkişaf edir, iqtisadi tərəqqiyə nail olunur, xalq-hakimiyyət birliyi möhkəmlənir, multikultural və tolerant dəyərlər cəmiyyətdə özünə mühüm yer tutur.

Azərbaycanın siyasi sistemində YAP konstruktiv fəaliyyətə, partiyalararası dialoqa üstünlük verən iqtidar partiyası kimi böyük nüfuza malikdir. Partiyaya görə, siyasi həmrəylik şəraitində partiyalararası qarşılıqlı etimad təmin olunur ki, bu da ümummilli məsələlərin həlli üçün mühüm əhəmiyyət kəsb edir. Çünki qarşılıqlı əməkdaşlıq və siyasi həmrəylik cəmiyyətdə ictimai-siyasi sabitliyi daha da möhkəmləndirir, ümummilli məsələlərin həllində vacib əhəmiyyət kəsb edir. Konstruktiv mövqe tutan siyasi partiyaların Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasətə dəstək verməsi siyasi həmrəyliyin və dialoqun bariz nümunəsidir.

Azərbaycançılıq məfkurəsinin ictimai fikirdə aparıcı yer tutmasının təmin edilməsi partiyanın əsas prinsiplərindən biridir ki, bu da təsadüfi deyildir. Çünki bu məfkurənin milli ideologiya səviyyəsinə qaldırılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycançılıq milli həmrəyliyin möhkəmləndirilməsi, milli-mədəni irsin və mənəvi-əxlaqi dəyərlərin qorunması, müxtəlif millətlərin və dinlərin nümayəndələri arasında qarşılıqlı etimadın yaradılması, xarici ölkələrdə yaşayan həmvətənlərimizin təşkilatlanması kimi vəzifələrin həyata keçirilməsində tarixi əhəmiyyət daşıyır.

YAP güclü və qüdrətli dövlət naminə fəaliyyətində xalqımızın iradəsindən çıxış edir, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin möhkəmlənməsinin, iqtisadi inkişafın ölkəmizin maddi və intellektual potensialı ilə sıx şəkildə bağlı olduğunu nəzərə alır. Bütün bunların əsasında davamlı iqtisadi inkişafa nail olunur, cəmiyyətdə ictimai-siyasi sabitlik, əmin-amanlıq və milli həmrəylik qorunur.

YAP-ın fəaliyyətini səciyyələndirən əsas xüsusiyyətlərdən biri insan faktoruna və sosial ədalətə böyük əhəmiyyət verilməsidir. Partiya ölkə vətəndaşlarının hərtərəfli inkişafına, sosial və mənəvi ehtiyaclarının ödənilməsinə vacib vəzifələrdən biri kimi yanaşır.

Azərbaycan dünyada tolerant dəyərlərin və multikulturalizmin, dinlərarası və mədəniyyətlərarası dialoqun inkişaf etdiyi dövlət kimi tanınır. Multikultural və tolerant mühit müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələri arasında dinc yanaşı yaşamanı təmin edir. YAP multikulturalizmin inkişafı ilə bağlı Prezident İlham Əliyevin apardığı siyasətin əhali arasında təbliğində yaxından iştirak edir. YAP-ın cəmiyyətdə nüfuzunu artıran xüsusiyyətlərdən biri partiya idarəçiliyinin və partiyadaxili fəaliyyətin demokratik prinsiplərə söykənməsidir.

YAP-la bir sıra xarici ölkələrin siyasi partiyaları arasında sıx əməkdaşlıq mövcuddur. Buna nümunə olaraq Avropa Parlamentində çoxluğa sahib olan Avropa Xalqları Partiyası ilə YAP-ın əməkdaşlığını göstərmək olar. YAP həmçinin Asiya ölkələrinin siyasi partiyalarının təmsil olunduğu "Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı" Daimi Komitəsinin üzvü kimi bu qurumun fəaliyyətində yaxından iştirak edir.

Heydər Əliyev yolu özündə Azərbaycan xalqına və dövlətinə sadiqliyin parlaq nümunəsini birləşdirir, ölkəmizin tərəqqisinə və möhkəmlənməsinə xidmət edir. Ulu Öndərin siyasi irsi ictimai fikirdə dövlətçilik və vətənpərvərlik kimi dəyərlərin özünə mühüm yer tutması üçün tarixi əhəmiyyət daşıyır. Buna görə də YAP Heydər Əliyev yolunu əsas amalı hesab edir və fəaliyyətini ona uyğun olaraq müəyyənləşdirir. Bütün bunlar hazırda 770 min nəfərdən çox üzvü olan YAP-ın möhtəşəm zirvələrə yol açan ümumxalq partiyası olduğunu, qüdrətli dövlət və yüksək rifah cəmiyyəti naminə üzərinə düşən missiyanı "Biz birlikdə güclüyük!" çağırışı ilə böyük əzm və qətiyyətlə yerinə yetirdiyini sübut edir.

***Mübariz QURBANLI,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,***
***Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü***

# İlham Əliyevdən türk dünyasına çağırış

## Azərbaycan Prezidenti qardaş ölkələrin liderlərini Qarabağ və Şərqi Zəngəzura dəvət etdi

Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa, yenidənqurma prosesi illərlə yağmalanıb dağıdılan, viran qoyulan yurd yerlərimizə yeni nəfəs gətirir, həyat qaynamağa başlayır.

Prezident İlham Əliyevin tapşırıqları əsasında Qarabağ və Şərqi Zəngəzurun "yaşıl inkişaf" konsepsiyası üzərində bərpası, "ağıllı kənd", "ağıllı şəhər"lərin yaradılması ümumilikdə Azərbaycanın iqtisadi qüdrətini dünyaya nümayiş etdirir. 30 ildə daşı daş üstündə qoymayan ermənilər də şahidlik edirlər ki, İlham Əliyev cəmi 2 ildə bu torpaqlarda möcüzələr yaradır.

Böyük zəfərdən sonra geniş tikinti-quruculuq meydanına çevrilən bölgədə bütün infrastrukturlar yenidən qurulur. Yeni avtomobil və dəmir yolları, körpülər, tunellər, hava limanları, elektrik və su xətləri, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, su-elektrik stansiyaları tikilir, tarixi-mədəni dini abidələrimiz bərpa edilir. Bütün bunlar isə, İlham Əliyevin dediyi kimi, Azərbaycan dövlətinin heç kimdən yardım almadan yalnız öz iqtisadi qüdrəti hesabına həyata keçirilir.

### Heç bir ölkədən, təşkilatdan, donordan bir manat yardım almamışıq

Noyabrın 8-də Zəfər Günü münasibətilə Şuşada hərbçilərimiz qarşısında çıxış edən Ali Baş Komandan bir daha bu məsələlərə toxunaraq bildirdi ki, indi dünyada müxtəlif yerlərdə gedən iqtisadi proseslər, çətinliklər, böhranlar onu göstərir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Ağır müharibədən çıxmış ölkə azad edilmiş torpaqlarda iki il ərzində genişmiqyaslı quruculuq işləri aparır. Bütün bu işlərin də maliyyə mənbəyi Azərbaycan büdcəsidir: "Biz bu iki il ərzində heç bir ölkədən, heç bir təşkilatdan, heç bir donordan bir manat belə yardım almamışıq. Əlbəttə, əgər kimsə yardım etmək istəsə, biz etiraz etmərik. Ancaq heç kim bizə yardım etmir və etməyəcək".

Atılan addımlar bir daha ölkə rəhbərinin bu ərazilərin bərpasına xüsusi diqqət ayırdığını, görülən bütün işlərin birbaşa onun nəzarəti altında həyata keçirildiyini göstərir. Bunu İlham Əliyevin işğaldan azad olunan ərazilərdə görülən işlər, təməlqoyma mərasimlərinin keçirilməsi ilə bağlı vaxtaşırı həmin ərazilərə səfərlərindən də görmək mümkündür.

Ümumiyyətlə, Azərbaycan daxili imkanları hesabına Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidənqurma işlərinə iki il ərzində təxminən 5 milyard manata yaxın vəsait ayırıb. Bu da işğaldan azad olunmuş torpaqlara tezliklə həyatın qayıdacağından, öz dədə-baba yurdlarından didərgin düşənlərin qısa zamanda geriyə dönəcəyindən xəbər verir.




### Türk dövlətləri bütün sahələrdə əməkdaşlığı fəallaşdırmalıdırlar

Azərbaycanın öz əzəli torpaqlarında gördüyü möhtəşəm işlər göz qabağındadır. Bunu Qarabağa, Şərqi Zəngəzura səfər edən xarici qonaqlar da təsdiqləyirlər. İki il ərzində müxtəlif vaxtlarda həmin ərazilərə baş çəkənlər dəyişiklikləri, həyata keçirilən işləri gördükcə təəccüblərini gizlədə bilmirlər.

Belə qısa zamanda dövlətimizin ermənilər tərəfindən viran qoyulmuş ərazilərimizi necə cənnətməkana çevirdiyini görüb bu heyrəti gizlətmək də mümkün deyil.

Noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə çıxış edən İlham Əliyev bir daha ölkəmizin iki il ərzində işğaldan azad edilən torpaqlarımızda yaratdığı möhtəşəm layihələr barədə məlumat verdi, həmin torpaqlarda müasir infrastruktur yaradan qardaş ölkələrə təşəkkürünü bildirdi.

Türk dünyasının böyük bir ailə olduğunu deyən İlham Əliyev bəyan etdi ki, dost ölkələr bir-birinin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməli, siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığı fəallaşdırmalıdırlar.

Prezident dedi ki, otuzillik işğal bitsə də, onun ağır fəsadları hələ də qalmaqdadır. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən Yer üzündən silinib. Vaxtilə böyük və çiçəklənən şəhər olmuş Ağdam o dərəcədə dağıdılıb ki, xarici ekspertlər onu "Qafqazın Xirosiması" adlandırırlar. Ermənistan işğal zamanı 67 məsciddən 65-ni yerləyeksan edib, qalan 2 məscidə isə ciddi zərər vurub və onlardan donuz, inək saxlanılması üçün istifadə olunub. Bu, bütün müsəlman dünyasına təhqirdir. İslamofobiya və türkofobiya Ermənistanın rəsmi ideologiyasının bünövrəsini təşkil edir.

Ermənistan işğal zamanı bizim ərazilərimizdə bir milyondan çox mina basdırıb. Vətən müharibəsindən ötən iki il ərzində 270-ə yaxın Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb.

Hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri aparır. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün "Böyük Qayıdış" proqramının icrasına başlanılıb. Bu prosesdə Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşada, Füzulidə, Zəngilanda və Cəbrayılda olub.

İlham Əliyev digər türk dövlətlərinin başçılarını da Qarabağa və Şərqi Zəngəzura dəvət edir və həmçinin işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikiləcək məktəbə və Qazaxıstan tərəfindən inşa olunacaq yaradıcılıq mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığını bildirir. Qeyd edir ki, bütün bunlar Azərbaycan-özbək və Azərbaycan-qazax xalqları arasında olan qardaşlığın təzahürüdür.

### Zəngəzur dəhlizinin açılmasından qardaş ölkələr də faydalana bilərlər

İkinci Qarabağ müharibəsinin nəticələri bölgə üçün yeni imkanlar açır. Azərbaycan Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir və dəhlizlə bağlı öz ərazisində genişmiqyaslı fəaliyyət həyata keçirir. Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq. Eyni zamanda bu dəhliz TDT-nin üzv dövlətləri üçün də iqtisadi dividendlər gətirmək iqtidarındadır.

Hazırda Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq həm də "Cənub-Qərb" və "Şimal-Qərb" layihələri üzərində iş aparır. Zəngəzur və ya Şərqi Zəngəzur-Naxçıvan-İran dəhlizinin açılması isə Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) daha səmərəli və etibarlı marşrut olmasına mühüm töhfə verə bilər.

Orta dəhliz uzaq Çindən yüklərin Avropaya və Yaxın Şərqə daşınması üçün ən təhlükəsiz marşrutlardan hesab edilir. Bu marşrut Şimal dəhlizindən orta hesabla 2500 kilometr qısadır və dəmir yolu ilə səyahət müddətini yeddi-səkkiz günə azaltmaq potensialına malikdir. O, həmçinin keçdiyi ölkələr arasında ticarətin inkişafına kömək etmək iqtidarındadır.

Bu dəhliz həm də tarixi Böyük İpək yolunun yenidən canlandırılmasını şərtləndirir. Çünki Orta dəhliz vasitəsilə yüklər Çin, Qazaxıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə və daha sonra Avropaya daşınacaq. Bu da İpək younun bərpası deməkdir.

Bu dəhlizin əhəmiyyətini artıran digər məsələ isə Rusiya-Ukrayna münaqişəsi ilə bağlıdır. Çünki Rusiya vasitəsilə Asiyadan Avropa Birliyi (Aİ) bazarlarına məhsulların tədarükündə problemlərin yaranması Orta dəhlizə olan marağı gücləndirir. Bu baxımdan dəhlizin fəaliyyətinin gücləndirilməsi Qərb və Şərq arasında təbii körpü rolunu oynayan Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi tanınan Orta dəhliz üzrə hərəkət edən blok qatarı yükləri orta hesabla 20-25 günə Çindən Avropaya çatdırır ki, bu da nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir. 2017-ci ildə işə düşən layihənin əhəmiyyəti 2022-ci ildə Ukrayna-Rusiya münaqişəsindən sonra kəskin şəkildə artıb.

Oktyabrın 13-də Astanada səfərdə olan Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə görüşündə də bu barədə fikirlərini səsləndirib. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan təkcə öz regionunda deyil, həm də daha geniş coğrafi miqyasda çox böyük rol oynayır. Bu gün gündəlikdə Orta dəhlizin inkişafı məsələsi durur: "Orta dəhlizin inkişafı ilə bağlı məsələlər zamanın hökmüdür. Yaxşı ki, həm Qazaxıstan, həm Azərbaycan buna hazır idi, çünki bizim ölkələrdə çox müasir nəqliyyat infrastrukturu yaradılıb ki, bu, çox böyük həcmdə yükləri artıq bu gün daşımağa imkan verir. Lakin düşünürəm ki, gələcək infrastruktur planlarımızın əlaqələndirilməsi zamanı biz Trans-Xəzər marşrutunun buraxılış qabiliyyətinin genişləndirilməsi üzrə bundan sonrakı işləri sinxronlaşdıra bilərik".

Həmin gün Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 6-cı Zirvə Toplantısının plenar iclasında çıxış edən İlham Əliyev həmçinin qeyd edib ki, Azərbaycan tərəfindən həyata keçirilən genişmiqyaslı nəqliyyat infrastrukturu layihələri ölkəmizi ən mühüm beynəlxalq nəqliyyat və logistika mərkəzlərindən birinə çevirib. 2022-ci ilin ilk doqquz ayı ərzində Azərbaycan ərazisindən keçən tranzit təxminən 65 faiz artıb. Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafına mühüm töhfələr verir. Ölkəmiz Orta dəhlizin önəmli hissəsini təşkil edəcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Avropa Şurasının Uşaq Hüquqları Koordinasiya Komitəsinin 6-cı plenar iclası işə başlayıb



Strasburqda Avropa Şurasında Uşaq Hüquqları Koordinasiya Komitəsinin (CDENF) 6-cı plenar iclası işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, Avropa Şurasında Azərbaycan nümayəndə heyətinin üzvü Sevinc Fətəliyeva komitə iclasında iştirak edir.

İclasda Avropa Şurasının uşaq hüquqları üzrə strategiyasının həyata keçirilməsi, strategiyanın izlənilməsi, uşaqların zorakılıqdan qorunması, bütün uşaqlar üçün bərabər imkanlar yaradılması və onların sosial inteqrasiyası, eləcə də texnologiyalardan təhlükəsiz istifadənin bütün uşaqlara əlçatan olması, böhran vəziyyətində uşaq hüquqları, Avropa Şurası və digər təşkilatların müvafiq orqanları ilə əməkdaşlıq kimi bir çox məsələlər müzakirə ediləcək. Həmçinin gələcək prioritetlər barədə Nazirlər Komitəsinə məsləhətlər vermək üçün Uşaq Hüquqları Koordinasiya Komitəsinin fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılacaq.

Azərbaycanlı deputat müzakirə olunan məsələlərlə bağlı fikirlərini bildirəcək.

Uşaq Hüquqları Koordinasiya Komitəsinin plenar iclası noyabrın 15-dən 17-dək davam edəcək.

Qeyd edək ki, 18 Noyabr Avropa Uşaqların İstismardan və Cinsi Zorakılıqdan Müdafiə Günü kimi qeyd olunur.

**YAP - 30**

# YAP-ın təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər davam edir

Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq silsilə tədbirlər davam edir.






Tədbirlər planı çərçivəsində noyabrın 15-də partiyanın Ağsu, Biləsuvar, Səbail, Qubadlı, Suraxanı rayon təşkilatları və Gəncə şəhər təşkilatı tərəfindən tədbirlər keçirilib.

Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Keçirilən tədbirlərdə - Ağsu rayonunda YAP Ağsu rayon təşkilatının sədri Füzuli Abdullayev, Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, YAP İdarə Heyətinin üzvü, professor Tofiq Cahangirov, YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin komitə sədri Tahir Rzayev, Biləsuvar rayonunda YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı, YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rəşad Mahmudov, Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov, Səbail rayonunda YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, YAP İdarə Heyətinin üzvü, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov, YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov, Milli Məclisin deputatı Nigar Arpadarai, partiyanın Qubadlı rayon təşkilatı tərəfindən keçirilən tədbirdə YAP Qubadlı rayon təşkilatının sədri Təhmasib Rüstəmov, YAP Veteranlar Şurasının üzvü Əli Həsənov, YAP İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Milli Məclisin deputatı İmamverdi İsmayılov, Milli Məclisin deputatı Ceyhun Məmmədov, Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov, Suraxanı rayonunda YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin komitə sədri Sadiq Qurbanov, Milli Məclisin deputatı Afət Həsənova, Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, Gəncə şəhərində YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Naqif Həmzəyev, Milli Məclisin deputatı Müşfiq Cəfərov, AMEA-nın Gəncə bölməsinin akademik katibi Fuad Əliyev və başqaları çıxış ediblər.

Çıxışlarda qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi və əbədiyaşar ideyaları Azərbaycan xalqının milli sərvətidir. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət ölkəmizin dünyada söz və nüfuz sahibi olan qüdrətli və qalib dövlətə çevrilməsini təmin edib. Vurğulanıb ki, Azərbaycanın aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası 30 il ərzində şərəfli inkişaf yolu keçib, ümumxalq partiyası kimi milli maraqların qorunmasında müstəsna rol oynayıb.

Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

# Azərbaycanın müdafiə sənayesi naziri "IDEAS-2022" Beynəlxalq Müdafiə Sərgisində iştirak edir

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilən "IDEAS-2022" 11-ci Beynəlxalq Müdafiə Sərgisində iştirak edir.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, noyabrın 15-dən 18-dək davam edəcək mötəbər tədbirə dünyanın 57-dən çox ölkəsindən 300-dən çox nümayəndə heyəti qatılıb.

"IDEAS-2022" Beynəlxalq Müdafiə Sərgisinin açılış mərasimində iştirak edən M.Quliyev stendləri ziyarət edib, o cümlədən qardaş Türkiyə Respublikasının Müdafiə Sənayesi Komitəsinin stendi ilə tanış olub, nümayəndə heyəti ilə görüş keçirib. Görüşdə mövcud əməkdaşlığın inkişaf perspektivləri və digər məsələlər barəsində fikir mübadiləsi aparılıb.





Sonra M.Quliyev Pakistan İslam Respublikasının müdafiə istehsalı üzrə federal naziri Məhəmməd İsrar Tarin ilə görüşüb.

Qarşılıqlı anlaşma şəraitində keçən görüşdə hər iki nazir Azərbaycan-Pakistan Hökumətlərarası Birgə Komissiyasının həmsədrləri olaraq maraq doğuran məsələlər haqqında danışıb, hərbi-texniki əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Qeyd edək ki, sərgi çərçivəsində müdafiə sənayesi naziri Mədət Quliyevin Pakistanın dövlət və hökumət nümayəndələri, sərgidə iştirak edən bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və aparıcı şirkətlərin təmsilçiləri ilə görüşləri də nəzərdə tutulub.

# Azərbaycan Avropaya qaz ixracını iki dəfə artıracaq

## Ölkəmiz bu qitənin əsas enerji təminatçılarından biridir

Son dövrlərdə bütün dünyada təbii qaza tələbat artıb. Bununla bağlı qiymətlər də yüksəlib. Tələbatın və qiymətlərin artması fonunda 2020-ci ilin dekabrından etibarən "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya mavi qaz nəql edən Azərbaycanın enerji təhlükəsizliyi ilə bağlı qlobal liderliyi daha da yüksəlib.

Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında enerji dialoqu inkişaf edir və bunun ən mühüm nümunələrindən biri bu il iyulun 18-də Bakıda "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanmasıdır. Aİ ilə imzalanan memorandum gələcək üçün bir növ yol xəritəsidir. Buna əsasən demək mümkündür ki, enerji sahəsindəki əməkdaşlıqlarımızla bağlı yaxın gələcəkdə daha çox uğurlara nail ola bilərik. Oktyabrın 1-də Bolqarıstanın paytaxtı Sofiyada Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasiminin keçirilməsi də məhz Azərbaycanla Aİ arasındakı eneji dialoqunun məntiqi davamıdır.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev də həmin memoranduma əsasən, Avropaya qaz ixracının iki dəfə artırılmasının planlaşdırıldığını bildirib. Qeyd edib ki, Avropaya ixracı iki dəfə artırmaq böyük işdir: "Bu, xırda məsələ deyil. Buraya sərmayə yatırılmalı, texniki imkanlar genişləndirilməlidir. Çünki hazırda Avropaya qaz nəql edən boru kəmərimiz TAP-ın ötürmə qabiliyyəti 10 milyard kubmetrdir. Yəni biz onu 20 milyard kubmetrə çatdırmalıyıq".





Azərbaycanın iqtisadi və siyasi həyatında yanacaq-enerji kompleksi sahəsi mühüm əhəmiyyət kəsb edir. Xüsusi vurğulamaq lazımdır ki, ölkəmizin neft və qaz ixracından əldə etdiyi valyuta gəlirləri ilk dəfə olaraq bu il bərabərləşib. Bütün bunlar sübut edir ki, ölkəmiz qaz sənayesində davamlı inkişaf yolunu tutub.

### Ölkəmizin qazdan əldə etdiyi gəlir neft gəlirlərini üstələyə bilər

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qeyd edib ki, "Cənub qaz dəhlizi"nin istifadəyə verilməsi ilə Avropaya qaz ixracının başlanması Azərbaycanın mavi qazdan əldə etdiyi gəlirlərinin artımına səbəb olub: "Ölkəmiz ötən müddətdə Avropaya 15 milyard kubmetr mavi qaz nəql edib. Azərbaycan cari ildə təkcə Avropaya 11 milyard kubmetr, bütövlükdə isə 22 milyard kubmetr mavi qaz nəql etməyi planlaşdırıb. Bu, Avropanın, eləcə də regionun enerji təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir".

V.Bayramov bildirib ki, bu ilin sonunda Azərbaycanın mavi qazdan əldə etdiyi gəlirlərin neft gəlirlərini üstələyəcəyi gözlənilir: "Azərbaycanın mavi qazı ən çox ixrac etdiyi ölkələr Türkiyə və İtaliyadır. Türkiyə ölkəmizin mavi qaz ixrac etdiyi ölkələr arasında birincidir. Eyni zamanda Yunanıstan, Bolqarıstan və Gürcüstan da ölkəmizdən mavi qaz alır. Yəni artan ixracın nəticəsidir ki, Azərbaycanın mavi qazdan əldə etdiyi gəlirlər neft gəlirləri ilə bərabərləşib. Bu, qazdan əldə olunan gəlirlərin ölkəmiz üçün əhəmiyyətli valyuta mənbəyi olduğundan xəbər verir. Təsadüfi deyil ki, növbəti 3-5 ildə Avropaya qaz ixracını iki dəfə artıraraq 20 milyard kubmetrə çatdırmağı planlaşdırmışıq".

Enerji məsələləri üzrə ekspert İlham Şaban da qazdan əldə etdiyimiz gəlirlər barədə fikirlərini bildirib. Qeyd edib ki, mavi qazdan əldə etdiyimiz gəlir ötən illə müqayisədə təxminən 4 dəfə artıb. Biz əvvəllər yalnız regional səviyyədə qaz satırdıq. Ötən il isə Avropadakı qaz satışımız layihə gücünə belə çatmamışdı.

"Bu il ixrac edilən qazın həcmi də, qiyməti də artıb. Bu, ölkəmizin gəlirlərini, hətta mənfəətini də artırır. Eyni zamanda azalmaqda olan neft gəlirlərini kompensasiya edir. Növbəti illərdə neftin həcmi azaldıqca gəlirləri də aşağı düşəcək. Nəzərə almaq lazımdır ki, hazırda bazarda neftin qiyməti çox yüksək olduğuna görə, cari ildə bu sahədə 8 milyard dollara yaxın mənfəət gözlənilir. Neftin bu il üçün olan 100 dollarlıq orta qiyməti 70 dollara düşərsə və ixrac həcmi 2-3 milyon azalarsa, deməli, neftdən əldə olunan gəlirlər də təxminən 50 faiz azala bilər. Bəlkə mifik səslənir, amma o gün uzaqda deyil: ölkəmizdə qazdan əldə olunan qazanc neftdən gələn mənfəəti üstələyəcək. Bu, qaçılmazdır", - deyə o qeyd edib.

### Avropa ilə əməkdaşlıq möhkəmləndirilir

İlham Şaban qeyd edib ki, Azərbaycanın Avropaya və digər ölkələrə qaz ixracını sürətləndirməsi iqtisadi inkişafımızla yanaşı, beynəlxalq imicimizin formalaşması baxımından da mühümdür. Onun dediyinə görə, Avropaya qaz nəql edən TAP boru kəməri illik 11 milyard kubmetrdən bir qədər çox qaz ixrac edə bilir. Bu, onun daxili imkanlarından maksimum yararlanmaq hesabına mümkün olur. Birinci mərhələdə boru kəmərinin gücü 10 milyard kubmetr qaz nəqlinə hesablanıb. Borunun gücünün mərhələli şəkildə artırılması üçün fiziki işlər görülməli və böyük kapital sərf olunmalıdır.

"Azərbaycan Avropaya həmişə bununla bağlı mesajlar verib. Bildirib ki, məsələləri kompleks həll etmək lazımdır. Belə olan halda, həm yeni qaz yataqlarının istismara verilməsi, həm də mövcud borunun gücünün artırılması reallaşdırılmalı, o cümlədən uzunmüddətli dövr üçün Avropadakı istehlakçılarla alqı-satqı müqaviləsi imzalanmalıdır. Bunun nəticəsidir ki, cari ildə Azərbaycanla Avropa İttifaqı arasında enerji əməkdaşlığına dair memorandum imzalandı və elan olundu ki, Avropa əlavə olaraq 10 milyard kubmetr qaz almaqda maraqlıdır. Buna uyğun olaraq Azərbaycan boru kəmərinin gücünü iki dəfə artırmaq və daxili resursları hesabına onun doldurulmasını təmin etmək istəyir", - deyə ekspert bildirib.

### Alternativ qaz yataqlarından istifadə labüddür

Hazırda dövlətimizin qaz ehtiyatı 2,6 trilyon kubmetrdir. Onun 1,2 trilyon kubmetri "Şahdəniz", 350 milyard kubmetri "Abşeron", 200 milyard kubmetri "Ümid" yataqlarının, 100 milyard kubmetrdən çoxu isə Azərbaycan Dövlət Neft Şirkətinin yataqlarının payına düşür. Bu isə toplam 1,85 trilyon kubmetr qaz ehtiyatı deməkdir.

Ölkəmizdə kəşfiyyat quyuları ilə qazılıb təsdiqini tapsa da, hələ istifadəyə verilməmiş qaz yataqları var. Belə qaz yataqlarından ən böyüyü Babək strukturudur ki, gələn il həmin yataqda kəşfiyyat işlərinin aparılması planlaşdırılır. Bundan əlavə, biz bir neçə neft-qaz yatağından da qaz ehtiyatı əldə edə bilərik. Misal üçün, Azəri-Çıraq-Günəşli neft yatağının dərin qatlarında 100 milyard kubmetrdən çox qaz ehtiyatı var. Həmçinin Dostluq, Qarabağ və digər yataqlarda da neft layları ilə yanaşı qaz layları da mövcuddur. Ekspertlər hesab edirlər ki, qaz ixracını artıraraq iqtisadiyyatımıza daha çox töhfə vermək üçün ölkəmizdəki alternativ qaz yataqlarının istifadəyə verilməsi labüddür.

Beləliklə, ölkəmizdə alternativ qaz yataqlarının istifadəyə verilməsi, bəzi yataqlarda hasilatın aparılması, eləcə də mövcud boru kəmərlərinin gücünün artırılması nəticəsində Azərbaycan qazının həcmi xeyli artacaq. Belə olan halda, Avropa və digər ölkələrlə ticarət əlaqələrini genişləndirən ölkəmiz üstünlük qazanacaq. Nəticə etibarilə Azərbaycanın həm gəlirləri, həm də Avropanın enerji təhlükəsizliyinə xidmət edən güclü dövlət kimi beynəlxalq nüfuzu artacaq. Reallıq budur ki, enerji təhlükəsizliyi prizmasından dövlət maraqlarını qətiyyətlə müdafiə edən Azərbaycana Avropanın tarixdə görünməməmiş dərəcədə ehtiyacı var. Bütün bunlar onu göstərir ki, Azərbaycanın enerji siyasəti milli maraqlarımızı qətiyyətlə təmin edir.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Türk həmrəyliyinin gücü



Prezident İlham Əliyev həmişə türk dünyasının bir olmasına çalışır və türkdilli ölkələrin siyasi, iqtisadi sahədə əlaqələrinin möhkəmləndirilməsində müstəsna rol oynayır. 2009-cu il 3 oktyabr tarixdə Naxçıvanda Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası yaradıldı. Türkdilli dövlətlər bütün beynəlxalq təşkilatlarda hər zaman bir-birini dəstəkləyir, eyni zamanda iqtisadi, siyasi əlaqələri durmadan genişləndirir. Türkdilli dövlətlər tərəfindən icra edilən bütün layihələr öz töhfəsini verməkdədir.

Azərbaycan-Türkiyə, Azərbaycan-Türkmənistan, Azərbaycan-Qazaxıstan arasında neft-qaz sahəsində sıx əməkdaşlıq mövcuddur. Bu əməkdaşlığın nəticəsidir ki, Xəzər dənizinin neft-qaz ehtiyatları dünya və Avropa bazarlarına çıxarılır. Bütün çətinliklərə və xarici təzyiqlərə baxmayaraq, məhz Prezident cənab İlham Əliyevin qətiyyətli siyasəti və mahir diplomatiyası nəticəsində Bakı-Tbilisi-Ceyhan neft kəməri inşa edilmişdir. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istifadəyə verilməsi ilə Azərbaycanın neft-qaz resursları Avropaya nəql olunur. İmzalanmış ikitərəfli sazişə əsasən, Qazaxıstanın neft-qaz resursları şaxələnmiş şəkildə Azərbaycan vasitəsilə dünya bazarına ixrac edilir.

Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi türkdilli dövlətlər arasında əlaqələrin daha da inkişaf etdirilməsinə böyük töhfə verməkdədir. Humanitar və mədəni sahələrin inkişaf etdirilməsi istiqamətində də əlaqələrin yaradılmasının önəmli olması barədə cənab İlham Əliyevin irəli sürdüyü təkliflər üzv dövlətlər tərəfindən rəğbətlə qarşılanmışdır. İcra edilmiş bütün layihələrin məqsədi türkdilli dövlətlərin bir-birilə daha sıx əlaqələr qurmasına yönəlmişdir. Qürurla qeyd etmək lazımdır ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası daha da inkişaf etdirilərək və gücləndirilərək Türk Dövlətləri Təşkilatına çevrilmişdir. Bu təşkilatın yaradılmasında Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin xidməti misilsizdir. 11 noyabr tarixində Özbəkistanın Səmərqənd şəhərində Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşünün keçirilməsi tarixi bir hadisə oldu. Görüşdə müzakirə edilən məsələlərə, həyata keçirilən böyük layihələrə və gələcəkdə təşkilatın qarşısına qoyduğu hədəflərə nəzər saldıqda çox yaxın zamanda Türk Dövlətləri Təşkilatının beynəlxalq sistemdə nüfuzlu bir quruma çevriləcəyini əminliklə söyləmək olar. Təşkilata üzv dövlətlərin yerləşdiyi coğrafiyaya nəzər salsaq görərik ki, bu ölkələr Asiya ilə Avropanı birləşdirən bir ərazidə yerləşir. Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin təbii ehtiyatları çox zəngindir və bu təbii ehtiyatlar 23 dövlətin üzv olduğu Avropa İttifaqı ölkələrinin təbii ehtiyatlarından azı iki dəfə çoxdur. Bu baxımdan üzv ölkələr qarşılıqlı sərmayə yaradaraq iqtisadi əlaqələri daha sıx şəkildə qurmaq barədə razılığa gəliblər.

Zirvə görüşündə cənab Prezident İlham Əliyevin çıxışı və Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin güclənməsi üçün verdiyi təkliflər, türkdilli xalqların təhlükəsizliyinin təmin edilməsi üçün irəli sürdüyü təşəbbüslər böyük rəğbətlə qarşılandı və düşünürəm ki, bu təkliflər bir yol xəritəsi kimi də qəbul edilə bilər. Dövlət başçımızın da qeyd etdiyi kimi türk dövlətləri Təşkilatı artıq vahid türk ailəsinə çevrilir.

Zirvə görüşündə Türk Dövlətləri Təşkilatı regionun vahid güc mərkəzinin əsasını qoydu. Dövlət başçımızın Türk Dövlətləri Təşkilatında da lider olduğunun şahidi olduq. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən başlayaraq Türk Dövlətləri Təşkilatı böyük inkişaf yolu keçmişdir. Türkdilli dövlətlər bir-birinin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərəcək. Siyasi, eləcə də həyatın bütün sahələrində, o cümlədən müdafiə və müdafiə sənayesi sahəsində də əməkdaşlıq etməklə türkdilli ölkələri güclü dövlətlərə çevirəcək.

Bu gün müstəqil türkdilli ölkələrdən kənarda milyonlarla soydaşımız yaşayır. Onların təhlükəsizliyinin, hüquqlarının, milli kimliyinin qorunmasının təşkilatın diqqətində olması barədə ölkə rəhbərinin fikirləri dövlət başçıları tərəfindən rəğbətlə qarşılandı. Azərbaycandan kənarda yaşayan 40 milyon azərbaycanlı digər ölkələrdə öz ana dilində təhsil almaq imkanlarından məhrum edilib. Azərbaycan dövlətindən ayrı düşmüş azərbaycanlılara ana dilimizi, adət-ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları və öz tarixi vətənləri ilə əlaqələrini kəsməmələri üçün dövlətimiz onlara hər zaman dayaq olacaq.

Ermənistan 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxladı. 2020-ci ildə Azərbaycan Ermənistan üzərində tarixi qələbə qazanaraq işğala son qoydu. Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edildi. İşğal müddətində Ermənistan böyük vəhşiliklər törətdi, şəhər və kəndlərimizi viran qoydu, məscidlərimizi dağıtdı, təhqir etdi. Artıq Azərbaycan bu torpaqlarda quruculuq və abadlıq işlərinə başlayıb və bunu sürətlə davam etdirir. İşğal dövründə türkdilli dövlətlər hər zaman Azərbaycanı dəstəkləyib və bu gün də quruculuq və abadlıq işlərində bizimlə bir yerdədir. Çox sayda Türkiyə şirkətləri quruculuq işlərində yaxından iştirak edir. İşğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan dövləti tərəfindən məktəb tikiləcək, Qazaxıstan tərəfindən isə yaradıcılıq mərkəzi inşa edəcək.

Müharibənin başa çatmasından 2 il keçməsinə baxmayaraq, Ermənistan üzərinə düşən öhdəlikləri yerinə yetirmir və Zəngəzur dəhlizinin açılmasına mane olmağa çalışır. Zirvə görüşündə qəbul edilmiş bəyannamədə üzv dövlətlər Zəngəzur dəhlizinin açılmasının vacib olduğunu qeyd etdilər. Zəngəzur dəhlizi Orta dəhliz olaraq Asiyadan Avropaya ən qısa və iqtisadi cəhətdən səmərəli quru yol hesab olunur.

***Kamilə ƏLİYEVA,***
***Milli Məclisin deputatı, professor***

## 16 Noyabr Beynəlxalq Tolerantlıq Günüdür

# Uğurlu inkişafın, sabitliyin təminatı



Tarix göstərir ki, yalnız sülhün, sabitliyin, mehribanlığın, bərabərliyin bərqərar olduğu yerdə rahat ömür sürmək mümkündür. İrqindən, dilindən, dinindən asılı olmayaraq, bütün dünya ictimaiyyətinin səadəti bu həqiqəti dərk etməsində və onu reallaşdırmağa can atmasındadır.

Hər il noyabrın 16-sı qeyd olunan Beynəlxalq Tolerantlıq Günü həmin gerçəkliyi bir daha diqqətə çatdırır.

### "...dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir"

İrqindən, dilindən, dinindən asılı olmayaraq, hər kəsin ümumi evi olan Yer kürəsini odlara qalamamaq, necə deyərlər, cəhənnəmə çevirməmək üçün tolerantlıq ideallarını, prinsipini təşviq və təbliğ etmək böyük əhəmiyyət daşıyır. Eyni zamanda tolerant dəyərlərə bağlılıq hər bir ölkədə daxili sabitliyin qorunmasına şərait yaradan mühüm amillərdəndir. Sevindirici haldır ki, dünyada ən qədim yaşayış məskənlərindən biri hesab edilən Azərbaycan bu mənada da örnək olan ölkələrin sırasındadır. Prezident İlham Əliyevin bildirdiyi kimi: "Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstəribdir. Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir, dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır".

Tolerant dəyərlərə hörmət, ehtiram tarixən ölkəmizin əhalisinin həyat tərzində, dünyagörüşündə mühüm yer tutub. Bu xüsusiyyətlər məmləkətimizdə sülhün, sabitliyin bərqərar olmasına, Azərbaycanda yaşayan insanların arasında daim dostluğun, mehribanlığın hökm sürməsinə şərait yaradır. Beləliklə, fərqli fikirlər, davranış nümunələri, müxtəlif dini baxışlar arasında qarşılıqlı hörmət, bağlılıq yaranır.

Təqdirəlayiqdir ki, bu gün müasir, dinyəvi dövlət olaraq tanınan Azərbaycan dünyaya, eyni zamanda tolerantlıq, dini dəyərlərə ehtiram nümunəsi göstərir. Prezident İlham Əliyevin sərəncamı ilə 2016-cı ilin "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam həmrəyliyi ili" elan edilməsi də belə bir münasibətin təzahürü idi.

Ölkəmizdə yaşayan bütün xalqlar və etnik qruplar bir ailənin üzvləri kimi mehriban yaşayırlar. Azərbaycan dövləti, eyni zamanda vətəndaşının öz milli adət-ənənələrini davam və inkişaf etdirməsinə, eləcə də dini ayinlərin icrasına hər cür şərait yaradıb. Məmləkətimizdə tarix boyu müxtəlif dinlər - bütpərəstlik, zərdüştilik, iudaizm, xristianlıq, islam və digər dinlər yayılıb. O da bəllidir ki, dini tolerantlıq cəmiyyətdə həmrəylik yaratmaqla dini sabitliyi möhkəmləndirən vacib amillərdən biridir. Müxtəlif sivilizasiyaların qovuşduğu, ayrı-ayrı dini görüşlərin formalaşdığı Azərbaycanda dinlər arasında qarşılıqlı etimad mühiti mövcuddur. Dini tolerantlığın qorunması müstəqil Azərbaycanın dövlət siyasətində mühüm yer tutur. Bu sahədə həyata keçirilən işlər dini sabitliyin möhkəmlənməsində böyük əhəmiyyət daşıyır.

Ayrı-ayrı milli-etnik qrupların və dinlərin nümayəndələrinin bir amal, bir məfkurə - azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşmələri ölkəmizdə tolerant dəyərlərin inkişafına böyük təkan verir. Bu isə öz növbəsində respublikamızın gündən-günə daha da güclənməsinə, böyük, tarixi qələbələrə adını yazdırmasına yol açır.

### Biz birlikdə güclüyük!

Azərbaycan tarix boyu çox çətin sınaqlarla üzləşib. Ötən əsrin sonuncu onilliyində gözəl məmləkətimizin başının üstünü yenidən qara buludlar aldı. İmperiyanın müstəmləkəsindən qurtulan və müstəqilliyinə qovuşan Azərbaycan bu tarixi qərarına görə ağır günlər yaşamalı oldu. Bütün sahələrdə tənəzzülə yuvarlanan, üstəlik, işğalçı, təcavüzkar ermənilərlə müharibə aparmaq məcburiyyətində qalan respublikamız böyük faciələrlə üzləşdi. Ermənistan himayədarlarından aldığı silah-sursat və digər yardımlar sayəsində ərazilərimizin iyirmi faizini işğal etdi. Bir milyondan çox soydaşımız yurdundan, evindən məhrum edildi. Təcavüzkar ermənilər minlərlə azərbaycanlını qətlə yetirdilər. Düşmənlər ana bətnində körpələrə, dünyada olanları hələ doğru-dürüst anlamayan uşaqlara, ömürlərinin bahar çağındakı gəlinlərə, qürub çağlarını yaşayan qocalara, yatağa məhkum xəstələrə, əlillərə belə acımadılar. Onları görünməmiş qəddarlıqla qətlə yetirdilər. Həmin illərdə - 1990-cı illərdə Azərbaycanın bütün kənd, qəsəbə, rayon və şəhərlərindən vətənsevərlərimiz yağı düşmənlə mübarizəyə qalxdılar. Bir çoxu şəhid və qazi oldu.

Ermənistan dövləti Qarabağ və Şərqi Zəngəzur torpaqlarını otuz ilə yaxın işğal altında saxladı. Həmin dövrdə də Azərbaycan dövləti, Azərbaycan xalqı öz tolerantlıq ənənələrinə sadiq qaldı. Respublikamızda hansı xalqa, etnik qrupa, dinə məxsusluğundan asılı olmayaraq, ibadətgahlar dövlət tərəfindən qorunaraq bərpa edildi. Bakının mərkəzində erməni kilsəsi belə yüksək səviyyədə bərpa olundu və fəaliyyətini davam etdirdi. Ermənistan isə təcavüzkar siyasətindən əl çəkmədi. Erməni vandalları işğalda saxladığı ərazilərdə azərbaycanlıların bütün tikililərini - yaşayış və inzibati binalarını, tarixi-mədəni, dini abidələrini uçurub dağıtdılar, məscidlərimizi tövlələrə, qəbiristanlıqlarımızı otlaqlara çevirdilər. Prezident İlham Əliyevin bildirdiyi kimi: "İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz ermənilər tərəfindən dağıdılıb. Bu barədə də faktlar var. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərib və onların məruzələrində bu, açıq şəkildə göstərilir. Bütün şəhərlər yerləyeksan edilib, infrastruktur, qəbirlər dağıdılıb. Onlar qəbirlərimizin üstünə buldozer salmışlar, dağıtmışlar. Məscidlərimiz dağıdılıb. Bakının mərkəzində erməni kilsəsi var. Biz o kilsəni bərpa etmişik. İndi o kilsədə erməni dilində 5 mindən çox kitab saxlanılır. Onlar isə bizim məscidlərimizi yerləyeksan ediblər".

İki il öncə Ermənistanın növbəti təxribatı nəticəsində Azərbaycan əraziləri yenidən müharibə meydanına çevrildi. 2020-ci ildə 44 gün davam edən Vətən müharibəsində böyük zəfərimizi şərtləndirən əsas amillərdən biri birliyimiz oldu. Otuz ilə yaxın davam edən işğala son qoyulmalı idi. O zaman Azərbaycanda yaşayan hər kəs bu arzu, bu məqsəd ilə sıx birləşdi.

Sentyabrın 27-də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev qismən səfərbərlik elan edəndə respublikamızın hər tərəfində gənclər Vətənin müdafiəsinə qoşulmaq üçün hərbi komissarlıqlara müraciət etdilər. O igid oğullar sinələrini düşmən güllələrinə sipər etdilər ki, Azərbaycanın 1990-cı illərdən Ermənistanın işğalında qalmış iyirmi faiz torpaqları azad olsun. Ermənistan silahlı qüvvələri Qarabağda, Şərqi Zəngəzurda ağır məğlubiyyətə uğradıldı. Ermənistanın otuz ilə yaxın zəbt etdiyi yurd yerlərimiz bir-bir geri alındı. Noyabrın 8-i Azərbaycan tarixinə qələbə günü kimi yazıldı. Bütün Azərbaycan xalqı bu qüruru bizə yaşatmaq üçün şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımıza da bir yerdə yas tutdu, zəfər sevincini birlikdə bayram etdi. Noyabrın 10-da qalib ölkənin Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı olaraq xalqa müraciət edən İlham Əliyev: "Bizim bütün binalarımız dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib, təbiətimizə böyük ziyan vurulub, məscidlərimiz dağıdılıb, təhqir edilib. Azad edilmiş torpaqlarda yarıdağılmış məscidlərdə vəhşi düşmən bizi təhqir etmək üçün, bizim qürurumuza toxunmaq üçün donuz saxlayırdı. Amma biz onların qisasını artıqlaması ilə aldıq", - dedi.

Bu gün Azərbaycan dünyanın ən sabit ölkələrindən biridir. Bir çox dövlətlərdə daxili çəkişmələrin yaşandığı, kütləvi etiraz aksiyalarının, müxtəlif dini birləşmələrin bərabər hüquq tələb etdiyi dövrdə respublikamızda əmin-amanlıq hökm sürür. Dünyanın ən təhlükəsiz ölkələrindən biri olması Azərbaycanı gücləndirir, hər bir azərbaycanlının rahat yaşamasına təminat yaradır.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# Zəfərdən sonrakı başlanğıc

## İlham Əliyev iki il öncə Qarabağ və Şərqi Zəngəzura ilk səfəri ilə bu ərazilərimizdə yeni həyatın təməlini qoydu

*Əvvəli 1-ci səh.*

### İşğaldan azad edilmiş torpaqlarda reallaşan birinci layihə - Zəfər yolu

Şanlı qələbədən sonra Füzuli rayonundan Şuşa şəhərinə yeni yol çəkilişi ilə bağlı göstəriş verən Prezident bu səfər zamanı həmin yolun inşasına start verdi və Azərbaycanın igid oğullarının qanı-canı bahasına düşmənin üzərinə yeriyərək Şuşaya qədər döyüş yolu keçdikləri bu ərazini Zəfər yolu adlandırdı.

Uzun illər işğal altında qalmış kəndlərin, şəhərlərin infrastrukturunun, ekologiyasının bərpası ilə bağlı planların icra olunacağını açıqlayan dövlət başçısı Qarabağa ilk səfəri zamanı düşmənin yerləyeksan etdiyi tarixi torpaqlarımızda quruculuq işlərinə başlanıldığını bəyan etdi.

Bütün Azərbaycan üçün tarixi əhəmiyyət daşıyan bu səfər çərçivəsində Prezident İlham Əliyev Füzuli, Cəbrayıl şəhərlərində, xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırmaqla yanaşı, bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparan Füzuli-Şuşa avtomobil yolunun və ya Zəfər yolunun da təməlini qoydu.

Prezident bildirdi ki, bu layihə işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən birinci layihə olduğu üçün onun icrasının xüsusi tarixi əhəmiyyəti var. Təxminən bir il ərzində reallaşan bu layihənin digər üstünlüyü Şuşaya getmək imkanlarının asanlaşdırılması oldu. Həmin yol çəkilənədək Şuşaya yalnız Ağdamdan getmək mümkün idi. İndi isə Şuşaya birbaşa Füzulidən də getmək olur.

İlk olaraq Füzuli şəhərində Azərbaycan bayrağını dalğalandıran Prezident dünyaya bir daha mesaj verərək dedi: "Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib. Çünki biz gəlməli idik, qayıtmalı idik. Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət Bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki əsrlər boyu biz yaşamışıq, bizim xalqımız yaşayıb".

Ali Baş Komandan Xudafərin körpüsündə və Cəbrayıl şəhərində şanlı Azərbaycan bayrağını qaldırdı. Dövlət başçısının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan xalqı üçün qürur və fəxarət idi. Xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürur məsələsi idi.

Düşmənin 30 il ərzində ərazilərimizi xarabalığa çevrilməsinə baxmayaraq, Azərbaycanın bu yerləri yenidən gülüstana döndərməsi üçün iqtisadi qüdrətə sahib ölkə olduğunu deyən İlham Əliyev bütün dünyaya bəyan etdi ki, qısa zamanda hər kəs Azərbaycanla Ermənistanın fərqini görəcək: "Bərpa edəcəyik bunları, hamısını bərpa edəcəyik. Azərbaycan xalqı bir daha öz böyüklüyünü göstərəcək. Bir daha bütün dünyaya sübut edəcəyik ki, biz böyük xalqıq".

### Qarabağ və Şərqi Zəngəzuru cənnətməkana çevirən Prezident

Sözü imzası qədər keçərli olan İlham Əliyev cəmi 2 ildə Qarabağ və Şərqi Zəngəzurda elə xariqələr yaratdı ki, bu ərazilərə ayaq basan hər kəs heyran qalır. Azərbaycan torpaqlarında misli görünməmiş tikinti-quruculuq işləri gedir.

İlham Əliyevin yeni, modern layihələri sayəsində Böyük qayıdış planı işə düşüb. Artıq 30 il məcburi köçkünlük həyatı yaşayan xalqımız geri qayıdır. Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən qaynamağa başlayır.

Prezident İlham Əliyevin ötən iki il ərzində işğaldan azad olunmuş rayonlara etdiyi bütün səfərlər və bu səfərlər çərçivəsində rayon ictimaiyyəti ilə keçirdiyi görüşlər, təməlqoyma mərasimlərində iştirakı dağıdılmış şəhərlərimizin, kəndlərimizin qısa müddət ərzində yenidən qurulacağına, insanların öz doğma el-obasına qayıdacağına, işğal altında olmuş ərazilərimizdə həyatın canlanacağına olan inamı daha da möhkəmləndirir.

Cəmi 2 il ərzində tikilən avtomobil yolları, hava limanları, yaşayış məntəqələri, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, dəmir yolları, körpülər, tunellərin çəkilişi Azərbaycanın iqtisadi qüdrətinin göstəricisi sayılır. Azərbaycan heç bir dövlətdən, maliyyə təşkilatından yardım almadan öz gücünə möhtəşəm layihələri gerçəkliyə çevirir.

Böyük quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzurda coşqunluq yaşanır, müxtəlif istiqamətli layihələrin sürətli icra prosesi gedir.

Bütün layihələrin icra prosesi ilə mütəmadi olaraq yerində maraqlanan quruculuğun baş memarı İlham Əliyev həm də reallığa çevrilən yeniliklərlə bağlı xalqı məlumatlandırır. Ümumiyyətlə, Azərbaycan Prezidentinin hər çıxışı, müsahibəsi, müşavirəsi digər sahələr kimi, işğaldan azad edilən torpaqlarımızdakı bərpa və quruculuq istiqamətində də görülən işlərin təqdimatıdır.

Əgər İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurda açılışında və təməlqoyma mərasimlərində iştirak etdiyi obyektlərin say tərkibinə diqqət yetirsək, hazırda bu işlərin yüksək səviyyədə aparıldığını böyük əminliklə qeyd edə bilərik.

Göründüyü kimi, Qarabağ və Şərqi Zəngəzuru quruculuğun əsas meydanına çevirən İlham Əliyev işğaldan azad edilmiş ərazilərdən lazımi şəraitin yaradılması üçün bütün addımları atır. Tezliklə işlər sona çatacaq, soydaşlarımız doğma yurd-yuvalarına qayıdacaqlar, Azərbaycanın həyatında, sözün əsl mənasında, yeni mərhələ başlayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Gələn il də Qarabağ və Zəngəzurun bərpası dövlət büdcəsinin prioriteti olacaq



## Bu, Azərbaycanın iqtisadi qüdrətinin əyani təzahürüdür

"İndi dünyada müxtəlif yerlərdə gedən iqtisadi proseslər, çətinliklər, böhranlar onu göstərir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Belə ağır müharibədən çıxmış ölkə azad edilmiş torpaqlarda iki il ərzində genişmiqyaslı quruculuq işləri aparır. Bütün bu işlərin də maliyyə mənbəyi Azərbaycan büdcəsidir".

Parlaq zəfərimizin ikinci ildönümündə - noyabrın 8-də Şuşada təşkil olunan tədbirdə çıxış edən Prezident İlham Əliyevin vurğuladığı kimi, dünya təcrübəsində hələ belə bir nümunə yoxdur ki, ağır müharibədən çıxan bir ölkənin iqtisadiyyatı heç bir böhran yaşamasın, büdcəsi nəinki müharibədən əvvəlki səviyyədə, hətta ondan da yüksək olsun və davamlı artsın.

Azərbaycan dövləti büdcə gəlirlərini ölkənin rifahının yüksəlməsinə və inkişafına, əhalinin həyat şəraitinin daha yaxşı təmin olunmasına yönəldir. Bu sayədə davamlı olaraq maaşlar, pensiyalar, sosial müavinətlər artır.

Eyni zamanda qısa zamanda böyük səmərə və yüksək keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazinin yenidən qurulması, Qarabağda və Şərqi Zəngəzurda keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması və onların əzəli yurdlarına qaytarılması Azərbaycan dövlətinin gündəliyində duran əsas prioritetdir.

Bu il oktyabrın 5-də Ağdamda keçirilən Azərbaycan Milli Şəhərsalma Forumunda dövlət başçısı İlham Əliyev söylədi ki, necə bahalı olursa-olsun, biz Qarabağı və Zəngəzuru yenidən quracağıq. Bu, bizim milli ideyamızdır.

### Böyük qayıdışa sürətli hazırlıq

Vətən müharibəsini zəfərlə sonlandırandan dərhal sonra ölkəmiz işğaldan azad etdiyi ərazilərində böyük quruculuq və bərpa işlərinə başlayıb. Bunun üçün həm 2021-ci, həm də 2022-ci ildə dövlət büdcəsindən Qarabağda və Şərqi Zəngəzurda bərpa və quruculuq işləri üçün 2,2 milyard manat vəsait ayrılıb.

Bir vacib məqamı da vurğulayaq ki, dünya bazarında neftin qiymətinin qalxması ilə Azərbaycanın 2022-ci il dövlət büdcəsində nəzərdə tutulandan daha çox gəlirlərin daxil olması büdcəyə yenidən baxılmasını zəruri etdi və Prezident tərəfindən "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Qanuna dəyişikliklər edilməsi barədə layihə Milli Məclisə təqdim olundu və qəbul edildi. Bu dəyişiklik nəticəsində büdcəyə daxil olan əlavə vəsait ilk növbədə işğaldan azad edilmiş ərazilərimizin bərpa və quruculuq işlərinə yönləndirildi. Belə ki, dövlət büdcəsinə edilən dəyişiklikdən sonra nəzərdə tutulan istiqamətə yönləndirilən bu vəsaitin həcmi daha 470 milyon manat artırıldı. Bununla da son iki ildə Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən işlərlə bağlı dövlət büdcəsindən bütövlükdə 5 milyard manata yaxın vəsait ayrıldı.

Bunun nəticəsidir ki, ötən iki il müddətində işğaldan azad edilən ərazilərimizdə xeyli sayda meqalayihələr gerçəkləşdirilib. İlk növbədə infrastrukturun qurulması istiqamətində böyük işlər görülüb, yollar çəkilib, nəhəng tunellər salınıb. Ötən il Füzulidə cəmi 8 aya tikilib istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı, eləcə də bu ilin oktyabrında açılışı həyata keçirilən Zəngilan Beynəlxalq Hava Limanı Qarabağ və Şərqi Zəngəzurda qısa zamanda gerçəkləşdirilən möcüzə layihələr kimi dəyərləndirilməlidir. Bölgənin iqtisadi və logistik imkanlarına müstəsna xidmət göstərəcək daha bir beynəlxalq hava limanının açılışı 2025-ci ildə planlaşdırılan Laçın hava limanının tikintisi də sürətlə aparılır.

Ümumiyyətlə, təsdiq olunmuş investisiya planına əsasən, Qarabağ və Şərqi Zəngəzurda ümumi uzunluğu 50 kilometrdən çox olan 33 tunel tikiləcək, uzunluğu 12 kilometr olan 84 yeni körpü salınacaq. Bütün azad olunmuş ərazilərdə elektrik təchizatı tamamilə bərpa olunub. Bu ərazilərdə bir neçə su-elektrik stansiyasının açılışı həyata keçirilib. Artıq bütün şəhərlərin baş planları hazırlanıb və təsdiqlənib.

Zəfərdən sonra Böyük qayıdışın ilk uğurlu addımları da atılıb və Zəngilanın "ağıllı kənd" konsepsiyası əsasında qurulmuş Ağalı kəndində ağalılılar yeni həyata başlayıblar.

Ötən ay Ağdamda dövlət başçısının iştirakı ilə 3 kəndin - Xıdırlı, Kəngərli və Sarıcalının təməlləri qoyulub və yaxın iki il ərzində bu kəndlərin sakinləri də geri dönəcək. Növbəti ilin sonuna kimi Laçın şəhərinin bərpası nəzərdə tutulub. Şuşada da ilk yaşayış kompleksinin inşasına start verilib və gələn ilin sonunda mədəniyyət paytaxtımız ilk sakinlərini qəbul edəcək.

Prezident İlham Əliyevin Zəfər Günündə Şuşadan bəyan etdiyi kimi, ötən bu iki il ərzində Azərbaycan işğaldan azad etdiyi torpaqlarında həyata keçirdiyi bütün işləri öz maliyyə gücü sayəsində reallaşdırıb.

"Biz bu iki il ərzində heç bir ölkədən, heç bir təşkilatdan, heç bir donordan bir manat belə yardım almamışıq. Əlbəttə, əgər kimsə yardım etmək istəsə, biz etiraz etmərik. Ancaq heç kim bizə yardım etmir və etməyəcək", - deyə vurğulayan dövlət başçısı Şuşada onu da qeyd etmişdi ki, əgər biz kimdənsə iqtisadi cəhətdən asılı olsaydıq, müharibəni uğurla başa vura bilməzdik.

### Büdcə siyasəti qarşısında duran əsas çağırışlardan biri

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinə əsasən, 2023-cü il üçün dövlət büdcəsinin gəlirləri 30,7 milyard, xərcləri isə 33,3 milyard manat proqnozlaşdırılır. Bu rəqəmlər Azərbaycanın müstəqillik tarixinin ən yüksək büdcə göstəriciləridir. Növbəti il üçün icmal büdcənin gəlirləri 33 milyard 6 milyon manat, xərcləri 37 milyard 949 milyon manat proqnozlaşdırılır.

2023-cü ilin dövlət büdcəsinin layihəsində Azərbaycan Prezidentinin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" ilə qarşıya qoyulmuş vəzifələrin mərhələli şəkildə icrası, əhalinin, şəhid ailələrinin, müharibə veteranlarının sosial müdafiəsi üzrə tədbirlərin daha da gücləndirilməsi, əməyin ödənişi sahəsində islahatların davam etdirilməsi, təhsil, elm, səhiyyə sahələrində islahatların növbəti mərhələsinin həyata keçirilməsi üçün maliyyə resursları nəzərdə tutulur.

Büdcə siyasəti qarşısında duran əsas çağırışlardan biri isə Böyük qayıdışın tərkib hissəsi kimi sözügedən ərazilərdə əhalinin dayanıqlı məskunlaşması üçün ilkin şərtlərin yaradılması, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında yaşayış və qeyri-yaşayış komplekslərinin inşası, qabaqcıl rəqəmsal texnologiyaların geniş tətbiqi ilə müasir sosial və biznes infrastrukturunun yaradılması, ümumi məhsul istehsalında, ixracda və məşğulluqda işğaldan azad edilmiş ərazilərin payının artırılması kimi mühüm tədbirlərin icrası üçün maliyyə təminatının yaradılmasıdır.

İşğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin daha geniş həcmlərdə davam etdirilməsi, keçmiş məcburi köçkünlərin öz əzəli yurdlarına mərhələli şəkildə qayıtması və məskunlaşması, bunun üçün sosial-məişət, təhlükəsizlik və məşğulluq şəraitinin yaradılması üzrə tədbirlərin həyata keçirilməsi, həmin ərazilərdə dövlət idarəetmə qurumlarının təşkili və fəaliyyəti ilə bağlı 2023-cü ilin dövlət büdcəsinin layihəsində də müvafiq maliyyə təminatı yaradılıb.

Belə ki, 2023-cü ildə işğaldan azad edilmiş ərazilərin bərpası üçün 3 milyard manat vəsait ayrılması nəzərdə tutulur. Bu da 2022-ci illə müqayisədə 330 milyon və ya 12,4 faiz çoxdur.

Göründüyü kimi, 2023-cü ilin dövlət büdcəsinin layihəsində hər bir sahə üzrə olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurun bərpası üçün ayrılan xərclər də əhəmiyyətli miqdarda artırılıb. Bütün bunlar isə həm də gələcəkdə Azərbaycan iqtisadiyyatı üçün aparıcı qüvvə olacaq bu ərazilərdə yeni həyatın başlanmasına çox az qaldığını deməyə əsas verir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Zəfərimiz regiona əbədi sülh gətirir

Ermənistan marionet dövlətdir. Dünyanı yönləndirmək istəyən, Cənubi Qafqazda gözü olan qüvvələrin əlində oyuncaq, vasitədir. Güclü dövlətlərdən ipini kim hara çəkibsə, ora da gedir.

İllərdir Azərbaycanın müstəqilliyini istəməyən, Cənubi Qafqazda qüdrətli bir türk dövlətinin olmasını arzulamayan qüvvələr "Ermənistanın əli ilə" torpaqlarımızın 20 faizindən bir qədər də çoxunu işğal edib yurd yerlərimizi viranə qoymuşdular. Özü də ermənilər bu mənfur hərəkətlərini heç çəkinmədən dünyanın gözü qarşısında etsələr də, onlara gözün üstə qaşın var deyən olmamışdı. Ona görə ki, müharibənin sifarişçiləri maskalarını dəyişib "sülhyaradan" cildində ortalıqda peyda olmuşdular. Məqsədləri süni yolla münaqişə müddətini uzadıb vaxt qazanmaq, ermənilərin Qarabağda mövqelərini daha da möhkəmləndirmək idi. Görünən bu idi ki, işğal etdiyi torpaqlar Ermənistana heç lazım deyildi, o, bu böyük oyunun kiçik fiquru idi. Əgər ermənilərin o torpaqlardan istifadə etmək niyyətləri olsaydı, iddia etdikləri kimi o torpaqlar ermənilərə məxsus olsaydı, işğal etdikləri əraziləri xarabazar etməzdilər. Torpağa, torpağın sayı qədər mina basdırıb ölü zonaya çevirməzdilər.

Ermənistan müharibə qanunlarına əməl etməyən təcavüzkar niyyətli dövlətdir. Hələ müvəqqəti hərbi üstünlüklərə malik olduqları zaman belə, nə müharibə qaydalarına əməl edirdilər, nə də insanlığa. Qorxu yaratmaq üçün əsir götürdükləri insanlara hər cür işgəncə verməkdən çəkinmir, insanlıqdan danışıb insanlığa sığmayan vəhşiliklər edirdilər. Qarşılarına çıxan silahlı, silahsız, uşaq, böyük, qoca, cavan bilmədən hamını məhv edir, güllələyir, yandırır, diri-diri torpağa basdırırdılar. Atəşkəs elan edib hər gün atəşkəsi pozurdular. Müvəqqəti hərbi üstünlüklərinin yaratdığı mənəm-mənəmlik hissi o həddə gəlib çatmışdı ki, hər gün ərazilərimizin daha bir hissəsini işğal edəcəkləri ilə təhdid etməkdən belə çəkinmirdilər. Cəzasızlıq, beynəlxalq qınağın olmaması, arxalarında bəzi güclü dövlətlərin durması erməniləri harınlatmışdı.

27 sentyabr 2020-ci il ermənilərin torpaqlarımıza növbəti təcavüzü səbri tükənmiş xalqın, qisas hissi ilə illərdir döyüş əmri gözləyən Azərbaycan Ordusunun, problemi son ana qədər sülh yolu ilə həll etməyə çalışan Azərbaycan Prezidentinin qəzəbinə səbəb oldu. Ali Baş Komandan orduya torpaqlarımızın düşmən işğalından azad edilməsi üçün döyüş əmrini verdi. Davamız haqq-ədalət davası idi. Azərbaycan təcavüzkara qarşı döyüşürdü. Kimsənin torpağında gözümüz yox idi. Kiminsə torpağını işğal etmək niyyətinə düşməmişdik. Azərbaycan Ordusu mənfur ermənilərdən fərqli olaraq, yalnız hərbi obyektləri vururdu, silahsız əhali, yaşayış məntəqələri hədəfimiz deyildi. Ermənilər kimi müharibə zonasından yüz kilometrlərlə uzaq şəhərlərə raket atmırdıq. Ümumiyyətlə, Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsi zamanı uzaqmənzilli raketlərdən istifadə etməsi barədə nə ermənilər, nə də havadarları ortalığa nə bir fakt, nə də bir sübut qoya bilmədilər. Ona görə ki, müharibə Azərbaycan ərazisində, doğma torpaqlarımızda gedirdi.

44 günlük müharibə eyni zamanda Azərbaycan dövlətinin dünyaya verdiyi bir dərs, göstərdiyi nümunə oldu. Texnologiya əsrində müharibənin gedişini izləmək o qədər də çətin deyil. Dünya ictimayyəti yaxşı görürdü ki, Azərbaycan bir dənə də olsun mülkü obyekti hədəf seçmir, şəhərləri dağıtmır. Müharibə zamanı bir erməni uşağının ölməməsi, məktəbinin, uşaq bağçasının dağılmaması Azərbaycan dövlətinin, onun rəhbərinin humanizminin bariz göstəricisidir.

Azərbaycanın müharibədə qələbəsi regionda sülhün, sabitliyin bərpası deməkdir. Qonşu dövlətlərlə iqtisadi-siyasi, strateji tərəfdaşlığın güclənməsi deməkdir. Ermənistan müharibə qanunlarına əməl etmədiyi kimi, postmüharibə qanunlarına da məhəl qoymur. Bütün müharibələrin sonu sülhlə tamamlanır. Təsadüfi deyil ki, müdriklər "ən yaxşı müharibədən ən pis sülh yaxşıdır" deyiblər. Buna baxmayaraq, Ermənistan sülh müqaviləsini imzalamağa tələsmir, müxtəlif bəhanələrlə sülh danışıqlarını uzadır.

Biz müharibə istəmirdik. Bizi buna məcbur etdilər. Biz müharibədən zəfərlə çıxmış dövlətik. Məqsədimiz təkcə Qarabağda deyil, regionda sülhə nail olmaqdır. 44 günlük müharibədə qazandığımız qələbə sülhün, əmin-amanlığın, regionda əbədi inkişafın qələbəsidir. Ermənilərin ölüm zonasına çevirdikləri Qarabağda insanlığın qələbəsidir. Bu qələbənin təminatçısı, təşkilatçısı həmişə birgəyaşayış qanunlarına əməl edən, yalnız sülhü arzulamayan, düşməni də sülhə məcbur edən Azərbaycan dövlətidir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Yanvar-oktyabr aylarında ÜDM istehsalı 5,2 faiz artmışdır

Cari ilin yanvar-oktyabr aylarında ölkədə 111 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,2 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,4 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 9,7 faiz artmışdır.

ÜDM istehsalının 52,9 faizi sənaye, 7,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 5,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,9 faizi tikinti, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,3 faizi informasiya və rabitə sahələrinin, 14 faizi digər sahələrin payına düşmüşdür. Məhsula və idxala xalis vergilər ÜDM-in 7,5 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 11032,8 manata bərabər olmuşdur.

## Dünya Bankı ilə yeni layihələrin icrası müzakirə olunub

İqtisadiyyat naziri Mikayıl Cabbarov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus və Bankın Azərbaycan üzrə ölkə meneceri xanım Sara Mayklla görüşüb.



Görüşdə iqtisadiyyat naziri Dünya Bankı ilə səmərəli əməkdaşlığı və əlaqələrin çoxşaxəliliyini vurğulayıb, bankla birgə həyata keçirilən layihələrin, hazırlanan analitik sənədlərin Azərbaycan iqtisadiyyatının dayanıqlı və davamlı inkişafının təmin olunması, iqtisadiyyatın şaxələndirilməsi, özəl sektorun inkişafı, investisiyaların artırılması kimi məsələlərə yönəldiyini qeyd edib. Nazir Dünya Bankı ilə potensial əməkdaşlıq sahələri, qurumun növbəti illər üzrə Azərbaycanda fəaliyyət istiqamətləri barədə fikirlərini bölüşüb.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus Bankın biznes mühiti, innovasiyalar, sahibkarlığın inkişafı və digər sahələrdə təcrübəsini diqqətə çatdırıb, Azərbaycanda aparılan iqtisadi islahatların bank tərəfindən dəstəkləndiyini vurğulayıb.

Görüşdə Azərbaycanla əməkdaşlığın genişləndirilməsi və yeni təşəbbüslər üzrə perspektivlər müzakirə olunub.

## Qarabağ zəfəri regionda türk dövlətləri üçün yeni iqtisadi imkanlar yaradıb

Dünyada, o cümlədən yerləşdiyimiz regionda baş verən münaqişələrin sayı artsa da, yeni müharibələr alovlansa da, fərqli bir dünya düzəninin qurulması da faktdır. Bu baxımdan Qarabağ qələbəsi bizə perspektivlərə güclü mövqelər üzərindən irəliləməyə, yeni hədəflərə səmtlənməyə fürsət yaradır. Çünki işğalçı Ermənistan üzərindəki müqəddəs qələbə bütün türkdilli xalqları bir-birinə zəncir kimi bağlamaqla yanaşı, həm də Azərbaycanı bütün türkdilli dövlətlərin qürur mənbəyinə çevirmişdir.



Ekspertlər Prezident İlham Əliyevin Səmərqənddə Türk Dövlətləri Təşkilatının (TDT) IX Zirvə görüşündə iştirakını Azərbaycanla türkdilli dövlətlərin iqtisadi əlaqələrinin inkişafına təkan verən güclü amillərdən biri kimi qiymətləndirirlər (Xatırladaq ki, TDT-yə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə üzv, Türkmənistan və Macarıstan isə müşahidəçi ölkə kimi daxildir). İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) departament rəhbəri Nicat Hacızadə deyir ki, türkdilli dövlətlərin iqtisadi əlaqələri getdikcə genişlənir: "2022-ci ilin yanvar-avqust ayları ərzində Azərbaycan ilə TDT arasında 4,6 milyard dollar dəyərində xarici ticarət əməliyyatları həyata keçirilib. Bu dəyər Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin 13 faizini təşkil edir. TDT-yə daxil olan ölkələr arasında Türkiyə Cümhuriyyəti 84 faizlə ilk sırada yer alır. Digər yerləri Qazaxıstan (8 faiz), Türkmənistan (5 faiz), Özbəkistan (3 faiz), Macarıstan və Tacikistan (birgə 1 faiz) tutur".

İİTKM-in təqdim etdiyi bu siyahıda Türkiyə Cümhuriyyətinin ilk sırada olması enerji ticarətinin dövriyyəsi ilə əlaqədardır. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın enerji məhsulları ixracında Türkiyə TDT ölkələri arasında yüksək paya malik yeganə dövlətdir. Ölkəmizin təbii qaz ixracının 17, xam neftin ixracının isə 1 faizi Türkiyə Cümhuriyyətinin payına düşür. Bundan başqa, TDT-də müşahidəçi ölkə rolunda çıxış edən Macarıstana 530 min dollar dəyərində neft məhsulu ixrac olunur ki, bu da ümumi ixracın yarısını təşkil edir. Türkiyə ilə Azərbaycan arasında qeyri-neft sektoru üzrə də ticarət dövriyyəsi yüksəkdir. Belə ki, Azərbaycanın qeyri-neft ixracında ilk sırada olan pambıq və kimya sənayesi məhsullarının böyük hissəsi qardaş ölkəyə ixrac edilir.

Azərbaycanın Macarıstan istisna olmaqla, digər türk dövlətləri ilə azad ticarət sazişləri və Türkiyə ilə preferensial ticarət sazişi mövcuddur. Türkiyə və Macarıstan TDT arasında Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiya yatıran əsas ölkələr sırasındadır. Təkcə 2022-ci ilin ilk 6 ayı ərzində Türkiyə Azərbaycan iqtisadiyyatına 480,8 milyon, Macarıstan 5,1 milyon, Qazaxıstan isə 3,5 milyon dollar birbaşa xarici sərmayə yatırmışdır. Azərbaycanlı investorlar tərəfindən isə Türkiyə Cümhuriyyətinə 59,7 milyon, Özbəkistan iqtisadiyyatına 8 milyon dollar sərmayə qoyulmuşdur.

Göründüyü kimi, türkdilli dövlətlərin iqtisadi əlaqələri sürətlə şaxələnir, bu əlaqələrdə yeni çalarlar formalaşır. Bu mənada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zirvə görüşündəki çıxışında Azərbaycan ilə Türkiyənin birgə reallaşdırdığı nəhəng layihələrə də toxunması təsadüfi deyil: "Bakı-Tbilisi-Ceyhan neft boru kəməri qlobal miqyasda ən uğurlu enerji layihələri arasındadır. "Cənub qaz dəhlizi" isə Avropaya qaz nəql edəcək dördüncü arteriya olaraq layihələndirilib. Onurğa sütununu Trans-Anadolu təbii qaz boru kəmərinin təşkil etdiyi bu dəhliz əlavə qaz tədarükü ilə daha da genişləndirilə bilər". Qardaş ölkənin lideri belə hesab edir ki, bunun arxasınca enerji sahəsində həm təşkilatın nəzdində və həm də ikitərəfli səviyyədə həyata keçirilən layihələrə önəm veriləcək.

Azərbaycan Prezidenti İlham Əliyev isə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsinin Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olduğunu vurğulamışdır: "Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq". Zirvə toplantısındakı çıxışında Prezident İlham Əliyev həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı quruculuq işləri apardığını, Böyük qayıdış proqramının icrasına başlanıldığını bildirmiş, bu prosesdə Türkiyə şirkətlərinin podratçı kimi fəal iştirak etdiklərini qeyd etmişdir.

Azərbaycan Prezidenti bu görüşdə də diqqətə çatdırmışdır ki, İkinci Qarabağ müharibəsinin nəticələri bölgə üçün yeni imkanlar açır: "Azərbaycan Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir və dəhlizlə bağlı öz ərazisində genişmiqyaslı fəaliyyət həyata keçirir. Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Əhalinin sosial güvənliyinin təminatında növbəti uğur

### Gələn ilin büdcə layihəsində yaşayış minimumu ehtiyac meyarına bərabər müəyyən edilib

Dünya iqtisadiyyatı növbəti dəfə çətin anlarını yaşayır. Əvvəl pandemiyadan, o sona çatmamışsa Rusiya-Ukrayna müharibəsindən qaynaqlanan böhran dünya iqtisadiyyatına böyük ziyan vurmaqda davam edir. Xüsusən Avropa ölkələri qış ərəfəsində enerji sınağı ilə üz-üzə qalıb. Səbəbi həmin ölkələrin Rusiya qazından imtina etmələridir.

Məlumdur ki, iqtisadi böhran özü ilə sosial sıxıntılar da gətirir. Belə ki, hazırda dünyada ərzağın, eləcə də digər istehlak mallarının və ödənişli xidmətlərin qiymətləri sürətlə bahalaşır. Bu isə əhalinin sosial rifahına birbaşa mənfi təsir göstərən haldır. Azərbaycan da dünyanın bir parçası olduğu üçün bu proseslərdən kənarda qalmır. Xüsusilə idxal olunan ərzaq məhsullarının qiymətinin bahalaşması əhalinin alıcılıq qabiliyyətinə mənfi təsir göstərir.

Bu baxımdan hazırda Milli Məclisdə müzakirə olunan gələn ilin büdcə layihəsində həm də qeyd etdiyimiz səbəblərdən ən çox vəsaitin sosial sahəyə ayrılması təsadüfi deyil. Belə ki, gələn ilin büdcəsinin gəlirlərinin təxminən 47 faizinin sosial sahəyə xərclənəcəyi nəzərdə tutulur. Bu fakt bir daha təsdiq edir ki, Azərbaycanda həyata keçirilən siyasətin əsas hədəfi ölkə vətəndaşının sosial güvənliyinin təminatıdır.

Aparılan müzakirələr zamanı Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, Azərbaycan vətəndaşlarının rifahının yüksəldilməsi, xüsusilə aztəminatlı insanların sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin daxili siyasətinin prioritet istiqamətidir. 2023-cü il üzrə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi haqqında qanun layihəsi də məhz bu baxımdan tərtib edilib. Diqqətə çatdırılıb ki, DSMF-nin gələn il üçün gəlirləri və xərcləri bərabər olmaqla 6,2 milyard manat proqnozlaşdırılır. Bu, cari ilin büdcəsinə nisbətən 657,7 milyon manat və ya 11,7 faiz çoxdur.

Xatırladaq ki, əmək pensiyalarının orta aylıq məbləği 2020-ci ildə 302, 2021-ci ildə 332, 2022-ci ildə 371 manat təşkil edib. 2023-cü ildə isə ölkə üzrə bu rəqəmin 423 manat olacağı proqnozlaşdırılır. Bu isə o deməkdir ki, son 4 ildə əmək pensiyalarının orta aylıq məbləğinin 120 manatdan çox artması hədəflənib. Növbəti ildə yaşa, əlilliyə, ailə başçısını itirməyə görə pensiyalarda da artım nəzərdə tutulub.

Müzakirə zamanı o da bildirilib ki, İşsizlikdən Sığorta Fondunun gələn ilin büdcəsində fondun gəlirləri və xərcləri bərabər olmaqla 212,7 milyon manat nəzərdə tutulub. Bu, cari ildəkindən 31,3 milyon manat, yaxud 17,3 faiz çoxdur. Söz düşmüşkən qeyd edək ki, gələn il İşsizlikdən Sığorta Fondunun xərcləri 13 istiqaməti əhatə edəcək. Xərclərin 41,1 faizi özünüməşğulluq tədbirlərinin, 21 faizi məşğulluq xidməti orqanının saxlanmasının, 16,5 faizi sosial sahədə xidmətlərin əməkhaqqının müştərək ödənilməsinin, 10 faizi peşə hazırlığı və əlavə təhsilin təşkili xərclərinin maliyyələşməsinə yönəldiləcək. Bundan əlavə, gələn il özünüməşğulluq layihəsi də davam edəcək. Proqram çərçivəsində 2023-cü ildə 10600 və əlavə olaraq 6000 nəfərin Dünya Bankının layihəsi ilə özünüməşğulluq təlimlərinə cəlb edilməsi nəzərdə tutulur. Bir sözlə, İşsizlikdən Sığorta Fondunun büdcə layihəsi növbəti ildə sığorta olunanların itirilmiş əməkhaqlarının kompensasiya edilməsinə, özünüməşğulluq, peşə hazırlığı və peşəyönümlü tədbirlərin keçirilməsi, ictimai-sosial işlərin və bir sıra digər xidmətlərin



maliyyələşməsi üçün optimal maliyyə əsasları yarada biləcək.

Komitə sədri gələn il həm yaşayış minimumunun, həm də ehtiyac meyarının nəzərəçarpacaq dərəcədə artacağını söyləyib. Bildirib ki, ilk dəfə yaşayış minimumu ehtiyac meyarına bərabər olacaq və hər ikisi 246 manat təşkil edəcək. Bunu sosial-iqtisadi sahədə aparılan islahatların uğurlu nəticəsi hesab etmək olar.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev müzakirəyə təqdim olunan qanun layihələrində sosialyönümlü xərclərin 2 dəfə artdığını qeyd edib. Diqqətə çatdırıb ki, Dövlət Sosial Müdafiə Fondunun növbəti il üçün büdcəsinin gəlirləri və xərcləri, qeyd olunduğu kimi, 6 milyard 264 milyon manat məbləğində proqnozlaşdırılır. Gəlirlərin içərisində 4 milyard 784 milyon manat məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərdir. Bu, cari ildəkindən 10 faiz və ya 422 milyon manat çoxdur. Həmin məbləğin 3 milyard manatı qeyri-büdcə təşkilatları üzrə daxilolmalardır ki, bu da cari il üzrə həmin göstəricini 12,5 faiz üstələyir.

DSMF-nin büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin həcmi 1 milyard 468 milyon manat məbləğində müəyyən edildiyi bildirilib. Bu da ümumi gəlirlərin 23 faizini təşkil edir. Nazir həmçinin bildirib ki, xərclərin 97 faizi əhaliyə edilən ödənişlərin payına düşəcək. Əmək pensiyalarının maliyyələşdirilməsi üçün 5 milyard 907 milyon manat və ya cari ildən 12 faiz, yəni 650 milyon manat çox vəsait ödənilməsi planlaşdırılır.

Layihədə novbəti il üçün yaşayış minimumunun ölkə üzrə 246, əmək qabiliyyətli əhali üçün 261, pensiyaçılar üçün 199, uşaqlar üçün 220 manat məbləğində müəyyən edilməsi nəzərdə tutulub. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə gələn il üçün ehtiyac meyarının həddinin isə 246 manat məbləğində müəyyənləşdirilməsi proqnozlaşdırılıb.

Büdcə layihəsindən aydın görünür ki, Azərbaycan dövləti vətəndaşının dünyada baş verən böhranın acı nəticələrindən qorunması üçün sosial müdafiəsini gücləndirməkdə qərarlıdır. Xüsusilə həssas qrupa daxil olan vətəndaşların sosial güvənliyinin təminatı üçün büdcədən daha çox vəsait ayırmağı nəzərdə tutur. Bu, növbəti ildə də Azərbaycan vətəndaşının sosial müdafiəsinin təmin edilməsinin diqqət mərkəzində olacağını təsdiqləyir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Ölkə üzrə 10 ayda 73,3 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir

Dövlət Statistika Komitəsinin açıqlamasına əsasən, 2022-ci ilin yanvar-oktyabr aylarında ölkədə 73,3 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir.

Neft-qaz sektorunda məhsul istehsalı 2,1 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 5,6 faiz artmışdır. Sənaye məhsullarının 76,4 faizi mədənçıxarma, 19,9 faizi emal, 3,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 5,5 faiz azalma, əmtəəlik qaz hasilatında 8,6 faiz artım qeydə alınmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 3,5, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 5,7 faiz artmışdır.

## Əsas kapitala 11,7 milyard manatdan çox vəsait yönəldilmişdir

İlin əvvəlindən ötən 10 ay ərzində ölkə üzrə əsas kapitala 11 milyard 774,5 milyon manat məbləğində, yaxud 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 8,2 faiz çox vəsait yönəldilmişdir.

Dövlət Statistika Komitəsi bildirir ki, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 13,5 faiz azalmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 23,8 faiz artmışdır.

İstifadə olunmuş vəsaitin 6 milyard 585,4 milyon manatı (55,9 faizi) məhsul istehsalı sahələrinə, 4457,5 milyon manatı (37,9 faizi) xidmət sahələrinə, 731,6 milyon manatı (6,2 faizi) yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 9 milyard 43,3 milyon manatını və ya 76,8 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 8 milyard 663,9 milyon manatı və ya 73,6 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 49,2, büdcə vəsaitləri 36,3, əhalinin şəxsi vəsaitləri 7,8, sair vəsaitlər 3,9, bank kreditləri isə 2,8 faiz təşkil etmişdir.

## AQA nəqliyyat dəhlizinin Azərbaycan hissəsində yük daşımaları həcmi çoxalıb

2022-ci ilin yanvar-sentyabr aylarında Avropa-Qafqaz-Asiya (AQA) nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 37 milyon 829,6 min ton, yük dövriyyəsi isə 9 milyard 435,5 milyon ton-km olmuşdur.

Əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 24,4 və 31,5 faiz artım müşahidə olunmuşdur. Yüklərin 20 milyon 376,1 min tonu (53,9 faizi) avtomobil nəqliyyatı, 12 milyon 435,7 min tonu (32,9 faizi) dəmir yolu nəqliyyatı, 5 milyon 17,8 min tonu (13,2 faizi) dəniz nəqliyyatı ilə daşınmışdır.

Dəhliz vasitəsilə daşınmış yüklərin 27,4 faizini və ya 10 milyon 352,5 min tonunu tranzit yüklər təşkil etmişdir.

# Bakıda XVII Beynəlxalq Caz Festivalı başlayıb

Noyabrın 15-də XVII Bakı Beynəlxalq Caz Festivalı başlayıb. Festivalın açılış mərasimi ADA Universitetində keçirilib.











AZƏRTAC xəbər verir ki, açılış mərasimində Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, respublikanın mədəniyyət ictimaiyyətinin nümayəndələri, caz musiqisi həvəskarları iştirak ediblər.

Konsertdən öncə Bakıda caz festivallarının tarixinə nəzər salınıb. Qeyd olunub ki, Bakıda ilk dəfə caz festivalı sovet dövründə - 1967-ci ildə keçirilib.

Diqqətə çatdırılıb ki, Bakı Beynəlxalq Caz Festivalı ənənəvi olaraq öz pərəstişkarlarına geniş proqram təqdim edir, burada konsertlərdən əlavə, incəsənət sərgiləri və caz mövzulu kino günləri təşkil olunur. Bu il istedadlı müasir rəssam Ramina Saadathan rəsmlər yaratdı və onları "Rəqs edən Caz" adlı layihədə birləşdirdi. Sərgidə tamaşaçılar caz sədaları altında yaradılmış bu rəsmlərə baxa biləcəklər. Noyabrın 17-də "QGallery"də "Dancing Jazz" sərgisinin açılışı olacaq.

Növbəti maraqlı tədbirlərdən biri tanınmış kinoşünas Ülvi Mehdinin aparıcılığı ilə YARAT Yaradıcılıq Mərkəzində caz əfsanəsi Maylz Devis haqqında filmin təqdimatı ilə yadda qalacaq.

XVII Bakı Beynəlxalq Caz Festivalının proqramı musiqi və incəsənətin parlaq elementlərindən yığılmış möhtəşəm "tapmaca" olacaq və payız mövsümünü gözəl şəkildə tamamlayacaq.

Vurğulanıb ki, XVII Bakı Beynəlxalq Caz Festivalının açılış mərasiminin ADA Universitetində keçirilməsi təsadüfi deyil. ADA Universiteti gənclərin, tələbələrin inkişafı üçün bir çox layihələr həyata keçirir.

Sonra festivalın yaradıcılarından biri olan tanınmış cazmen, saksofon ifaçısı, Əməkdar artist Rain Sultanov tamaşaçıları salamlayıb, onlara gözəl axşam arzulayıb.

Açılış mərasimində çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev vurğulayıb ki, ənənəvi caz festivalının ilk dəfə ADA Universitetində açılışı böyük şərəfdir. Hafiz Paşayev həmçinin caz musiqisi ilə tanışlığına dair xatirəsini tədbir iştirakçıları ilə bölüşüb. ADA Universitetinin rektoru tədbirə gələn hər kəsə təşəkkürünü bildirib.

Tədbirdə mədəniyyət naziri Anar Kərimov Bakı Beynəlxalq Caz Festivalının gözəl bir ənənəyə çevrilməsindən söz açıb. O, builki festivalın açılış mərasiminin ADA Universitetində keçirildiyi üçün rektor Hafiz Paşayeva minnətdarlığını bildirib. Nazir qeyd edib ki, builki festivalda gənclər üçün xüsusi yer ayrılıb. Festival çərçivəsində onlar arasında müsabiqə də keçiriləcək. Eyni zamanda sərgi və film nümayişi olacaq. Bakı Beynəlxalq Caz Festivalının coğrafiyası ildən-ilə böyüyür. Bu il də Almaniyadan, İsveçrədən, İtaliyadan, İsraildən, Braziliyadan və digər ölkələrdən ifaçılar çıxış edəcəklər. Əminik ki, festival Azərbaycanda olan caz ənənələrini daha da inkişaf etdirəcək.

Festivalın açılışında həmçinin Braziliyanın Azərbaycandakı səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz çıxış edərək burada olmasından məmnunluğunu söyləyib və tədbirin təşkilatçılarına təşəkkürünü bildirib.

Daha sonra "Grammy" mükafatı laureatı, isveçrəli ifaçı Qreqori Maret konsert proqramı ilə çıxış edib. O, Azərbaycan musiqiçiləri ilə eyni səhnəni bölüşüb. Unikal layihədə Azərbaycan tərəfini parlaq gənc pianoçu Elbəy Məmmədzadə təmsil edib.

Qeyd edək ki, son onillikdə Qreqori müasir caz dünyasının geniş spektrində unikal və cəlbedici səsə çevrilib.

# ADA Universiteti "JSTOR" Açıq İcma Kolleksiyaları layihəsində təmsil olunur

ADA Universiteti Beynəlxalq Müəssisələr və Qlobal Araşdırma platformaları ilə əməkdaşlığı genişləndirməkdədir. Universitet Kitabxana və informasiya xidmətləri şöbəsi tərəfindən təmsil olunaraq "JSTOR" şirkətinin Açıq İcma Kolleksiyaları layihəsinə qoşulub.







Universitetdən AZƏRTAC-a bildirilib ki, Açıq İcma Kolleksiyaları müəssisələrin öz rəqəmsal kolleksiyalarını "JSTOR" platformasında yerləşdirməsinə və paylaşmasına imkan verməklə unikal ilkin mənbə resurslarını dünya üzrə geniş tədqiqatçılar, akademik heyət və kitabxana istifadəçiləri şəbəkəsi üçün əlçatan edir. Bu, ADA Universitetinə öz xüsusi kolleksiyalarını təqdim etmək və Azərbaycanın mədəni və tarixi irsini bütün dünyada təbliğ etmək üçün mühüm imkan yaradır.

Açıq İcma Kolleksiyalarında təmsil olunmağın vacib üstünlüklərindən biri "OCLC WorldCatDiscovery", "ExLibrisPrimo/Summon" və "EBSCO DiscoveryServices" kimi tanınmış qlobal kitabxana informasiya mərkəzləri vasitəsilə əlçatan olmaqdır. Bu da, öz növbəsində, təqdim olunan rəqəmsal kolleksiyanın "JSTOR" abunəliyi olmayan digər elmi müəssisələr üçün də əlçatanlığını təmin edir. Hazırda "JSTOR" Açıq İcma Kolleksiyalarında ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə "Azərbaycan" qəzetinin 1918-20-ci illəri əhatə edən transliterasiya edilmiş buraxılışlarının rəqəmsal nüsxələri mövcuddur.

# Qış turizmi - imkanlar az, qiymətlər baha

Dünya iqtisadiyyatına əhəmiyyətli təsiri olan turizm iqtisadi gəlirləri artırmaqla yanaşı, yeni iş yerləri yaradır, ölkənin infrastrukturunu inkişaf etdirir və ən əsası isə əlaqələri genişləndirir, əcnəbilərlə yerli vətəndaşlar arasında mədəniyyətlərarası dialoqu formalaşdırır. Bu səbəbdən dünya ölkələri də mütəmadi olaraq turizmin müxtəlif növlərini şaxələndirməyə maraq göstərir və daha çox turist cəlb etmək yönündə işlər həyata keçirirlər.

Azərbaycanda da həm iqtisadi potensialın artırılması, həm də daxili və xarici turizm sahəsinin effektiv inkişafı üçün müxtəlif işlər görülür. Ölkəmizin qış turizminə hazırlıq mərhələsi, hansı gözləntilərin olduğu və ümumilikdə bu turizm növünün nə dərəcədə effektiv olması ilə bağlı araşdırma apardıq.

## Şərait olsa da, qiymətlər hər kəs üçün əlçatan səviyyədə deyil

Ümumiyyətlə, qış turizmi, adətən, dağların qar ala bilən yüksək qurşağında xizək-sürmənin üstünlük qazandığı turizm növüdür. Standart bir idman növü kimi başlayan qış turizmi sonradan qonaqlama, əyləncə, qidalanma kimi xidmətləri özündə əks etdirir. Yəni qış turizmi soyuq, şaxtalı havada hansısa istirahət mərkəzində və ya hotellərdə qalıb sutkanı müəyyən əraziləri gəzib və yeyib-içməklə keçirmək demək deyil. Dünyada qış turizmi deyiləndə yalnız qarlı hava və xizəklə sürüşmək əyləncəsi yada düşür. Bizdə isə qış turizmi fikri səslənəndə göz önünə ilk olaraq samovar çayı və yeyib-içib dincəlmək gəlir.

Təbii ki, ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazası da mövcuddur. Bəs real vəziyyət necədir?

Hazırda 3 regional bölgədə - Qusar, Qəbələ və Naxçıvanda fəaliyyət göstərən qış turizm mərkəzləri hər mövsüm yerli vətəndaşların və əcnəbilərin istifadəsinə verilir.

Turizm üzrə ekspert Ceyhun Aşurov qəzetimizin əməkdaşına açıqlamasında bildirdi ki, Azərbaycanda qış turizmi ilə bağlı yaradılmış infrastruktur tamamilə dünya standartlarına cavab verəcək səviyyədədir: "Qış fəsli yaxınlaşdıqca, hər il olduğu kimi, bu mövsüm də müvafiq işlər görülüb. Proqnozlaşdırılır ki, yeni mövsümdə daxili tələbat da çox olacaq. Belə ki, hazırda xarici ölkələrdə istər təyyarə biletləri, istərsə də gecələmə və qidalanma xərcləri olduqca yüksəkdir. Bu səbəbdən də yerli əhali yaxın bölgələrdə istirahət etməyə üstünlük verir. Bu nöqteyi-nəzərdən Azərbaycanda da qış aylarında, xüsusilə də qeyri-iş günləri, həftəsonları və bayramlarda tələbatın artacağı təxmin edilir".

"Şahdağ", "Tufandağ" və "Ağbulaq" Turizm mərkəzlərində lazımi infrastrukturlar qurulsa da, qiymətlər nisbətən yüksəkdir. Belə ki, xizək mərkəzlərinin ətraf ərazilərindəki əyləncələrdən istifadə, hotellərdə gecələmək bir çox halda yerli vətəndaşların büdcəsinə uyğun olmur. Bu məsələyə diqqəti çəkən ekspert öncəliklə vurğulayır ki, sözügedən bölgələr dağ xizəyi üçün əlverişli olan bölgələrdir: "Ancaq onu da qəbul etmək lazımdır ki, bunların sayı məhduddur və hər kəs üçün əlçatan səviyyədə deyil. Lakin sevindirici hal ondan ibarətdir ki, bu infrastrukturların ətrafındakı bölgələrdə, məsələn, Qusarda son vaxtlarda yeni hotellərin açıldığını müşahidə edirik. Bu məkanlar imkan verir ki, oraya gedənlər büdcələrinə uyğun şəkildə məkan seçsinlər və dağ xizəyindən istifadə edə bilsinlər. Həmçinin digər bir alternativ də var: kənd evləri də dövriyyəyə girib ki, bu da istər yerli, istərsə də xarici turistlərə münasib qiymətə gecələmək imkanı yaradır".

## Dağ xizəyindən əlavə alternativlərin sayı artırılmalıdır

Azərbaycan isti iqlim qurşağında yerləşdiyinə və qış turizmi ölkəsi kimi xarakterizə olunmamasına baxmayaraq, respublikanın bölgələrində iqlim şəraitinin imkan verdiyi qədər bu turizm növü şaxələndirilir.

Azərbaycan Ekoturizm Assosiasiyasının icraçı direktoru, turizm üzrə ekspert Samir Dübəndi nəzərə çatdırır ki, qış turizmi deyəndə birinci növbədə xizək sürmək yada düşür. Amma bununla yanaşı, qış turizmində digər fəaliyyət növləri də mövcuddur: "Şahdağ və "Tufandağ" Qış-Yay Turizm mərkəzlərində qonaqlara xizəklə yanaşı, kempinqlər, kvadrosikllər, seqvey, peyntbol, bobkart, at gəzintiləri də təklif edilir. Həmçinin tezliklə paraplan və "zip-line" fəaliyyət növləri də istifadəyə veriləcək. Bunlar sakit, küləksiz, yağıntısız hava şəraiti tələb edən aktiv fəaliyyətlərdir. Buradan da aydın olur ki, sözügedən mərkəzlərin ərazilərindən savayı, digər yerlərdə də bir sıra qış turizmi və fəaliyyət növlərini yaratmaq olar".

Ekspert qeyd edir ki, qış turizmi sahəsinin şaxələndirilməsi yönündə mövcud olan bir çox təcrübələrdən istifadə etmək mümkündür: "Məsələn, uşaqlar üçün çox maraqlı olan Yeni il bayramında Şaxta Babanın Laplandiyadakı evinin oxşarı və bu ənənə ətrafında müxtəlif fəaliyyətlər yaratmaq mümkündür. Şimalda layka itlərə qoşulmuş xizək kirşələrdə gəzintilər və yarışlar, qış meşə giləmeyvələrinin yığımı və digər fəaliyyətlərdən də istifadə edilə bilər. Bununla yanaşı, dağ mərkəzlərimizin yamaclarının vəziyyətini qiymətləndirərək müxtəlif xizəksürmə yarışlarının keçirilməsini də təşkil etmək olar. Belə tədbirlər mərkəzlərə diqqət və marağı artırmaqla daha çox yerli vətəndaşları və xarici turistləri cəlb edə bilər".

Samir Dübəndinin fikrincə, dağ xizək turizmi dünyada qiymət baxımından heç də ucuz turizm fəaliyyəti növü hesab edilmir. Burada təklif olunan əyləncələr nisbətən baha olsa da, hətta bəzi hallarda mərkəzlər ziyana işləyirlər. "Şahdağ" Turizm Mərkəzinin rəsmi saytında dərc edilmiş 2018-2019-cu illər üzrə maliyyə hesabatına əsasən, mərkəzin təxminən 20-25 milyon manat ziyanla işləməsi faktını nəzərə aldıqda, alternativ fəaliyyət növlərinin vacibliyi öz təsdiqini tapır: "Qiymətlərin endirilməsi və daha çox kütlənin cəlb edilməsi üçün isə rəqabətqabiliyyətli mühit formalaşdırılmalıdır. Bu alternativlər həm hotel və restoran biznesinə, həm də digər xidmətlərə şamil edilir. Misal üçün, xüsusi geyim icarəyə verən nöqtələrin sayını artırmaqla daha ucuz təkliflər meydana çıxa bilər".

## Bəzi turizm şirkətləri təhlükəsizlik qaydalarına əməl etmirlər

Qış turizmi sahəsi bir qədər riskli və ekstrim elementləri olan fəaliyyət növü hesab edilir. Bundan əlavə, qış mövsümündə hava şəraitinin sərtləşməsi yollardakı hərəkəti də çətinləşdirir. Bu səbəbdən turistlərin təhlükəsizliyi məsələsi önə çıxır. Ümumilikdə istər turistin, istərsə də yerli vətəndaşın təhlükəsizliyi turizm fəaliyyətlərində xüsusi önəm daşıyır.

Hazırda ölkədə turizm şirkətləri pərakəndə şəkildə fəaliyyət göstərirlər. Bu biznesin müxtəlif formaları və növləri olsa da, qış mövsümündə arzuolunmaz halların baş verməsi qeyri-peşəkarlıqdan qaynaqlanan hal kimi qiymətləndirilir. Yəni sosial şəbəkədə hesab açaraq bu sahədə azacıq biliyin olması kifayət edir ki, həmin turizm şirkətləri həm daxili turizmlə, həm də xarici turizmlə məşğul olsunlar. Nəticədə sığorta təklif etmədən onlarca şirkət şəhər və regionlar arasında insanları daşıyır, onlara müxtəlif fəaliyyətlər təklif edirlər.

Samir Dübəndi vurğulayır ki, bu, ən sadə variantda az investisiya tələb edən biznes kimi görünür: "Məhz bu səbəbdən adıgedən iqtisadi fəaliyyət növündə müxtəlif biliyə və bacarığa malik olanlar fəaliyyətdədirlər. Turistlərin və ekskursantların sığortalanması məsələsi ən vacib amildir. Hazırda bu proses geniş miqyasda yayılmasa da, indiki vəziyyət öncəki illərdən daha yaxşıdır. Turizm fəaliyyəti ilə məşğul olan bizneslər üçün ilk növbədə təhlükəsizlik və sığorta prioritet olmalıdır. Xüsusilə bu sahədəki boşluq daxili turizmdə daha çox müşahidə edilir".

## Turistlərin sayı ilin sonuna qədər 1 milyon 400 minə çata bilər

Dövlət Turizm Agentliyindən verilən məlumata görə, ilin əvvəlindən etibarən aparılan marketinq və təbliğat tədbirlərinin nəticəsi olaraq yay aylarında turizm sənayesində xeyli canlanma müşahidə edilib. Yanvar-avqust ayları ərzində Azərbaycana 1 milyondan çox xarici ziyarətçi gəlib ki, bu da 2019-cu ilin nəticələri ilə müqayisədə, yəni pandemiyadan sonrakı dövrdə turizmin təxminən 50 faiz bərpa olunduğunu deməyə əsas verir.

Bütün dünyada turizm üçün daha passiv dövr kimi hesab edilən payız aylarını nəzərə alaraq bu ilin sonunadək xarici ziyarətçilərin sayının 1 milyon 400 minə çatacağını proqnozlaşdırmaq olar. Bununla belə, turizmin tam bərpası bir sıra vacib amillərin mövcudluğundan asılıdır. Birbaşa hava uçuşlarının olması xüsusilə Asiya bazarı üçün əlçatanlıq baxımından önəmli faktordur.

Bununla belə, bildirilir ki, agentlik tərəfindən hədəf bazarların xüsusiyyətləri nəzərə alınaraq müvafiq marketinq fəaliyyətləri həyata keçirilir. Payız mövsümündə planlanan marketinq və təbliğat tədbirlərinin bir hissəsi məhz qış mövsümü üçün müvafiq bazarlardan turistlərin cəlb edilməsi, digər qismi isə xüsusilə səyahətləri bir neçə ay qabaqcadan planlaşdıran Avropa turistləri üçün növbəti ilin yaz-yay ayları üçün nəzərdə tutulub.

Avropa bazarında "Şahdağ", "Tufandağ" və "Ağbulaq" kimi qış turizm destinasiyalarının təbliği hazırkı əsas hədəflər sırasındadır. Sentyabr ayında Azərbaycanın turizm imkanlarının Avropada tanıdılması məqsədilə Azərbaycan Turizm Bürosu tərəfindən Polşa və Çexiyada təqdimatlar keçirilib. Varşava, Krakov və Praqada tərəfdaşlarla əməkdaşlıq əlaqələrini genişləndirmək məqsədilə keçirilən tədbirlərdə Azərbaycandan turizm sənayesini təmsil edən 15-dək turizm şirkəti iştirak edib və yerli sənaye nümayəndələri ilə Polşa və Çexiyanı təmsil edən turizm şirkətləri arasında biznesdən-biznesə formatlı görüşlər keçirilib.

Dövlət Turizm Agentliyi onu da nəzərə çatdırır ki, polşalı turistlər hazırda Avropanın qış idman bazarının əsas iştirakçılarıdır. Onların ölkəmizdəki qış idman kompleksləri barədə məlumatlılığının artırılması üzrə işlərin genişləndirilməsi də əsas planlardan biridir. Hazırda qış mövsümündə Yaxın Şərqdən turist axınının təmin edilməsi üçün müvafiq danışıqlar aparılır, birgə tədbirlər davam etdirilir.

Xüsusilə ilk dəfə olaraq bu il "Flynas" Hava Yolları şirkəti həftədə 3 dəfə olmaqla Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərindən qış mövsümündə ölkəmizə uçuşlar həyata keçirəcək. Eyni zamanda Cənub-Şərqi Asiya regionundan Pakistan və Hindistan, Çin, Yaponiya və MDB ölkələri hədəf bazarlar sırasındadır və müxtəlif istiqamətlərdən turizmin təbliğatı işi davam etdirilir. Beynəlxalq media ("BBC", "CNN", "Euronews) və dünya üzrə tanınmış səyahət planlaşdırma platformaları ("Expedia", "Wego", "Avisales", "Skyscanner", "ProfiTravel" və s.) ilə də əməkdaşlıq edilir.

Göründüyü kimi, Azərbaycan zəngin turizm potensialı olan ölkədir. O cümlədən qış turizmində də daha uğurlu nəticələr əldə edilə bilər. Bu səbəbdən istifadəyə yararlı olan digər dağ ərazilərində tədqiqatlar aparılmalı, əyləncə və fəaliyyət növlərinin geniş və əlçatan olması üçün yeni təkliflər verilməlidir. Xüsusilə iqtisadi fəaliyyət sahələrini inkişaf etdirmək üçün bu sahədəki yeni bizneslərə maliyyə imkanları yaradıla, bank kreditləri və subsidiyalar ayrıla bilər.

*Aydan XƏLİLOVA*

# Fikrət Əmirovun 100 illiyi Azərbaycan Dövlət Akademik Filarmoniyasında qeyd olunub



Noyabrın 15-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti Fikrət Əmirovun 100 illik yubileyi münasibətilə konsert proqramı təqdim olunub.

AZƏRTAC xəbər verir ki, gecədə Xalq artisti Ağaverdi Paşayevin dirijorluğu ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri çıxış edib.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas, Əməkdar mədəniyyət işçisi, Fikrət Əmirov yaradıcılığı haqqında bir neçə monoqrafiya və sənədli filmin müəllifi Səadət Təhmirazqızı bəstəkarın yaradıcılığından söz açıb. Bildirib ki, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli simalarından olan Fikrət Əmirov musiqinin demək olar ki, bütün janrlarına müraciət edərək çox dəyərli sənət əsərləri yaradıb. Onun əsərləri musiqi tariximizin parlaq səhifələridir. Bu əsərlər öz bədii məzmunu, etik əhəmiyyəti, yüksək fəlsəfi və psixoloji cəhətləri ilə həmişə aktualdır. Çünki bəstəkarın zəngin və rəngarəng yaradıcılığının əsas qayəsi milli üslubda professional musiqi əsərləri yaratmaqdır. Bütün yaradıcılığı boyu bu ideyaya sadiq qalan Fikrət Əmirov hətta bu istiqamətdə yeni bir janr da yaradıb ki, bu da dünya musiqisində heç bir analoqu olmayan simfonik muğam janrıdır.

"Bəstəkarın özünəməxsus musiqi dili olduğuna görə onun simfonizmi çox möhtəşəmdir. Bunun da əsas səbəbi bəstəkarın milli musiqini dərindən bilməsi və onu Qərb musiqi alətlərinin dilinə çevirmək bacarığından irəli gəlir. Bu cəhətlər Fikrət Əmirovun bütün əsərlərində sanki qırmızı xətlə keçir. Böyük bəstəkar xalq musiqimizə sadəcə bəstəkar kimi deyil, onun keşiyində duran və onu qoruyan, yaşadan bir sənətkar kimi yanaşıb. Buna görə də ölməzlik qazanıb", - deyə Səadət Təhmirazqızı vurğulayıb.

Daha sonra konsert proqramı təqdim olunub. Xalq artistləri Yeganə Axundova (fortepiano), Teyyub Aslanov (xanəndə), respublika və beynəlxalq müsabiqələr laureatı, Prezident təqaüdçüsü Lalə İbrahimova (soprano) çıxış ediblər. Orkestrin ifasında bəstəkarın "1001 gecə" baletindən "Şəhrizadın bayramı", "Sevil" operasından Dilbərin ariyası, H.Cavidin "Şeyx Sənan" dramından "Kor ərəbin mahnısı", Kürdi-Ovşarı simfonik muğamından fraqment, fortepiano və Xalq Çalğı Alətləri Orkestri üçün 3 hissəli konserti təqdim edilib.

Fikrət Əmirov yaradıcılığının şedevr nümunələri tamaşaçıların alqışları ilə qarşılanıb.

Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 17.11.2022-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Narkomaniyaya qarşı mübarizədə təbliğat kampaniyasının təşkili" adlı təkrar müsabiqə keçirir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Narkomaniyaya qarşı mübarizədə təbliğat kampaniyasının təşkili" adlı təkrar müsabiqə keçirir.

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 29 noyabr 2022-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 30 noyabr 2022-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5038)

*Müsabiqə komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti balansında olan "Merkuri-1" gəmisinin MAN 6K45GFCA baş və MAN 6T23LH köməkçi mühərriklərinin ehtiyat hissələrinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 25 noyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəh., Mikayıl Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

*Tender komissiyası*



OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# "Böyük İyirmilik" həyəcan təbili çalır

## Rusiya-Ukrayna müharibəsi ərzaq qiymətlərinin daha da artmasına səbəb olmaqla dünyanı ağır fəlakətə sürükləyir

Noyabrın 15-də İndoneziyanın Bali adasında rəsmi olaraq "Böyük İyirmilik" (G20) sammiti başlayıb. Zirvə toplantısının əsas mövzuları Rusiya-Ukrayna müharibəsi və onun iqtisadiyyata təsiri, ilk növbədə milyonlarla insanı yoxsulluq həddindən aşağı salan ərzaq qiymətlərinin artmasıdır.



"Böyük İyirmiliy"ə sədrlik edən İndoneziya Prezidenti Coko Vidodo açılış nitqində müharibəyə son qoymağa çağırıb. Onun fikrincə, müharibə bitməsə, irəliləmək çətin olacaq: "Biz dünyanı hissələrə bölməməliyik", - deyə İndoneziya Prezidenti bildirib.

Sammit ərəfəsində çıxış edənlər müharibənin qlobal iqtisadi sarsıntıya gətirib çıxardığını və yaranmış vəziyyətin qətiyyətlə pislənilməli olduğunu bildiriblər.

Balidə olan Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin jurnalistlərə verdiyi məlumata görə, "Böyük İyirmilik" sammitində iştirak edən ölkələrin nümayəndələri konfransın yekunlarına görə, dövlət başçıları tərəfindən imzalanmalı olan qətnamə layihəsi üzərində artıq razılıq əldə ediblər.

"DPA" agentliyi xəbər verir ki, Rusiya tərəfi BMT-nin müharibə ilə bağlı mövqeyinin yekun bəyannamənin mətnində qeyd oluna biləcəyi ilə razılaşıb. Qeyd olunur ki, sammitdə Prezident Vladimir Putinin əvəzinə iştirak edən Rusiyanın xarici işlər naziri Sergey Lavrov ən azı, yekun sənəddə hərbi münaqişələrdə nüvə silahından istifadənin yolverilməzliyinə istinadı açıq şəkildə dəstəkləyib.

"Böyük İyirmilik" sammiti ərəfəsində ABŞ Prezidenti Co Bayden və Çin lideri Si Cinpin arasında danışıqlar aparılıb. Bu, dövlət liderlərinin ilk rəsmi şəxsi görüşü olub. Bayden və Si Cinpin digər məsələlərlə yanaşı, Rusiya-Ukrayna müharibəsini müzakirə ediblər və bu münaqişədə nüvə silahının istifadəsinə qarşı çıxıblar. Amerika Prezidenti Çin lideri ilə söhbəti açıq və dürüst adlandırıb.

Jurnalistlərin ABŞ və Çin arasında Tayvan məsələsi ilə bağlı mümkün soyuq müharibə ehtimalı ilə əlaqədar sualına Bayden belə cavab verib: "Mən tamamilə əminəm ki, yeni soyuq müharibə olmayacaq... Çin tərəfindən Tayvanı işğal etmək üçün qaçılmaz cəhdlər olacağını düşünmürəm".

Bayden rəsmi Vaşinqtonun Tayvanla bağlı siyasətinin dəyişmədiyinə və ABŞ-nin məsələlərin sülh yolu ilə həllini istədiyinə işarə edib. "Mən əminəm ki, Si Cinpin mənim nə danışdığımı dəqiq başa düşüb", - deyə Bayden əlavə edib.

Hər iki lider Ukraynada nüvə silahından istifadənin, eləcə də ondan istifadə ilə bağlı hədələrin yolverilməz olduğunu bəyan edib. Si Cinpin, bir neçə aylıq müharibədən sonra oradakı vəziyyətdən ciddi narahat olduğunu vurğulayıb. Pekin əvvəllər tərəfləri təmkinli olmağa çağırıb, lakin ÇXR-in mühüm ticarət tərəfdaşı olan Rusiyanın işğalını pisləməyib.

Ağ Evin görüşdən sonra yaydığı məlumata görə, Prezident Bayden və Prezident Si Cinpin birgə rəy ifadə ediblər ki, nüvə müharibəsini başlamaq olmaz və belə savaşda qalib gəlmək mümkün deyil.

Sammitdə Ukraynaya Qara dəniz limanları vasitəsilə taxıl ixrac etməyə imkan verən saziş də müzakirə olunacaq.

Xatırladaq ki, Türkiyə və BMT-nin vasitəçiliyi ilə iyul ayında Rusiya ilə əldə edilmiş taxıl sazişinin müddəti noyabrın 19-da başa çatır. Moskva artıq onu pozmaqla bağlı mövqeyini bildirib.

Bundan əlavə, sammitin sonunda Rusiyanın mövqeyinə görə ləğv edilə bilən "taxıl müqaviləsi"nin uzadılması barədə qərarın qəbul ediləcəyi gözlənilir.

Bundan əvvəl Aİ, ABŞ və Böyük Britaniyanın nümayəndələri anti-Rusiya sanksiyalarının tətbiqi qaydalarını izah edən bəyanat yayaraq sazişin müddətinin uzadılmasının zəruriliyini ayrıca qeyd ediblər.

Noyabrın 12-də isə "Böyük İyirmilik" ölkələri 1,4 milyard dollarlıq COVID-19 pandemiya fondunun yaradıldığını elan edib. Bu vəsait növbəti beş il ərzində səhiyyə sistemlərini gücləndirmək və büdcələrdəki boşluqları aradan qaldırmaq üçün istifadə olunacaq.

BMT-nin baş katibi Antoniu Quterreş Rusiyanın razılaşmanı uzadacağına ümid etdiyini bildirib və bu razılaşmanın ərzaq təhlükəsizliyi üçün çox vacib olduğunu deyib.

BMT-nin məlumatına görə, sövdələşmə başlanandan bəri Ukraynadan 10 milyon ton taxıl və digər kənd təsərrüfatı məhsulları uğurla ixrac olunub ki, bu da qlobal ərzaq böhranının qarşısını almağa kömək edib.

İndoneziya hakimiyyəti ümid edir ki, sammitdə dünyanın aparıcı dövlətlərinin gələcək hərəkətləri barədə razılığa gələ biləcəklərini nümayiş etdirən birgə bəyanat qəbul olunacaq.

"Danışıqlar demək olar ki, başa çatıb, lakin biz heç nə vəd edə bilmərik" deyən yüksəkrütbəli İndoneziya rəsmisi "Frans Press" agentliyinə bildirib və əlavə edib ki, müharibə məsələsi əsas maneə olaraq qalır.

ABŞ-nin müttəfiqləri ümid edirlər ki, onların Putinə təzyiqin artırılması zərurəti ilə bağlı arqumentləri inflyasiyanın artmasından ciddi narahat olan digər "Böyük İyirmilik" ölkələrindən də dəstək tapacaq.

Rusiyanın "Böyük İyirmiliy"in yekun qətnamə layihəsi ilə ilkin razılaşması barədə məlumatlara baxmayaraq, sənəd imzalanmaya da bilər. Belə ki, Rusiya nümayəndələri son anda dəfələrlə beynəlxalq konfransların kommünikesinin, o cümlədən Nüvə Silahlarının Yayılmaması Müqaviləsi üzrə İcmal Konfransının nəticələrinə dair yekun sənədin imzalanmasına qarşı çıxıblar.

"Kyodo" agentliyinin məlumatına görə, Aİ və Böyük Britaniya sammitdə Rusiya nümayəndələrinin çıxışlarını boykot edə bilər və təşkilatçılar "Böyük İyirmiliy"in bir neçə ölkəsinin liderlərinin Sergey Lavrovla eyni şəkildə olmaqdan imtina etməsinə görə iştirakçıların ənənəvi birgə fotoçəkilişini ləğv ediblər. Oxşar vəziyyət iyulda Balidə keçirilən "Böyük İyirmiliy"in xarici işlər nazirlərinin sammitində də müşahidə olunub. Həmin vaxt rusiyalı nazir tədbir bitməmiş oradan ayrılıb və konfransdan sonra heç bir yekun bəyanat verilməyib.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# İrəvan dalana dirənib

## Ermənistanda miqrasiya prosesinin daha da sürətlənməsi gözlənilir

Ermənistanda sosial-iqtisadi vəziyyətin təhlili aydın şəkildə göstərir ki, ölkədə inflyasiya böyük sürətlə dərinləşdiyi təqdirdə, əhalinin maddi gəlirlərində hansısa artım yoxdur. Yaranan fərq nisbəti insanların durumunun daha da ağırlaşmasına, onların ifrat yoxsulluq həddində yaşamasına səbəb olmaqdadır. Rəsmi dairələr də inflyasiya prosesinin nəzarətdən çıxdığını, vəziyyətin ağırlaşdığını etiraf edirlər.

Elə mövcud hakimiyyətin səriştəsizliyinin nəticəsidir ki, Ermənistan daha bir ili ağır vəziyyətlə başa vurmaq üzrədir. İqtisadçılar 2022-ci ilin də ölkə üçün yaxşı heç nə vəd etmədiyini diqqətə çatdırıblar. Məsələ bundadır ki, ölkədə bu ilin 9 ayında sosial-iqtisadi vəziyyətdə müsbətə doğru heç bir dəyişiklik olmayıb. Əhalinin maddi gəlirlərində artım qeydə alınmayıb. Yaranan fərq nisbəti vətəndaşların sosial vəziyyətinin daha da ağırlaşmasına, onların ifrat yoxsulluq həddində yaşamasına səbəb olubdur. Rəsmi dairələr də inflyasiya prosesinin nəzarətdən çıxdığını, vəziyyətin daha da ağırlaşdığını etiraf edirlər.

Ermənistanın rəsmi statistikasına görə, bu gün ölkədə hər 5 nəfərdən biri yoxsulluq həddində yaşayır. Beynəlxalq qurumların hesabatlarına görə də bu göstərici Ermənistanda hər 3 nəfərdən birinə aiddir. Bu ölkənin rəsmi statistikasında hər 5 nəfərdən biri işsizdir. Beynəlxalq hesabatlarda bu rəqəm 25 faizə yaxındır. Praktik olaraq Ermənistanın həm rəsmi statistikası, həm də beynəlxalq hesabatlar ölkənin sosial və iqtisadi vəziyyətinin kifayət qədər acınacaqlı olduğunu göstərir.

Bütün bunların fonunda Ermənistanda anti-Rusiya abhavası artmaqdadır. Erməni saytları bu ölkənin əleyhinə silsilə yazılar dərc edir, siyasətçilər, ziyalılar isə tez-tez Rusiya əleyhinə açıqlamalar verirlər. Məsələn, erməni ictimai xadimi Manvel Qasparyan iddia edib ki, artıq bir çox əcnəbi banklar İrəvanın müttəfiqinə görə Ermənistanla maliyyə əməliyyatlarından və ümumilikdə əməkdaşlıqlardan yayınmağa başlayıblar: "Bəzi məlumatlara görə, xarici banklar, maliyyə mərkəzlərinin əksəriyyəti Ermənistanda sövdələşmə əməliyyatlarından imtina ediblər. Sövdələşmələri davam etdirən yalnız 2-3 bank var. Səbəb ölkəmizdə olan Rusiya kapitalının dövriyyəsidir. Bununla əlaqədar ölkəmizə müəyyən məhdudiyyətlər qoyulub. Əgər daha konkret məlumatınız varsa, bizimlə paylaşın".

"4rd.am" saytı yazır ki, Ermənistan əhalisinin üçdəikisi yoxsulluq həddində yaşayır. Nəşr qeyd edir ki, Ermənistanda insanlar yoxsul olduqlarını etiraf etməyə utanırlar: "Ona görə də statistik xidmətlərin göstəriciləri reallığı əks etdirmir. Bu gün Ermənistanda yoxsulluq 41 min dram (86 dollar) səviyyəsində müəyyən edilib. O zaman belə çıxır ki, 42 min drama yaşayan insan yoxsul deyil?!"

Sayt miqrasiya sahəsində də acınacaqlı durumun yarandığını diqqətə çatdırır. Qeyd olunur ki, Rusiya Ermənistan vətəndaşlarına öz vətəndaşları kimi baxılması üçün nə lazımdırsa edir. Bunu Ermənistan hakimiyyəti vətəndaşlarının ölkəyə qayıtmaması üçün istəyir: "Ermənistan hakimiyyətinin Rusiya ilə apardığı danışıqlar yalnız postmüharibə dönəmində İrəvana dəstək çıxması ilə yanaşı, insanların ölkəni tərk etməməsi üçün Ermənistanda yeni iş yerlərinin açılmasını əhatə etmir. Ermənistan hakimiyyəti, eyni zamanda Moskvadan miqrant vətəndaşları üçün ən yaxşı şəraiti yaratmağı xahiş edir. Səbəb də odur ki, Rusiyadan qayıdan vətəndaşlar Nikol Paşinyan üçün əlavə təhlükə yarada bilərlər. Hazırkı hakimiyyət üçün ağır vəziyyətdən çıxış yollarından biri də emiqrasiyadır".

Bütün sahələrdə iflasa uğrayan Ermənistanda işsizlik böhranı da yaşanır. Ölkədə təkcə gənclərin 42 faizi işsizdir. Qeyd olunur ki, həkimlər, tibb bacıları, mühəndislər, müəllimlər, digər peşə və sənət adamları arasında işsizlik hallarına daha çox rast gəlinir. Bu arada daha bir maraqlı məqam işsizlərin arasında qadınların sayının getdikcə artmasıdır. Hesab edilir ki, Ermənistanda işsizlər arasında kişilərin azlıq təşkil etməsi təəccüb doğurmamalıdır. Çünki kişilərin əksəriyyəti öz ailəsini dolandırmaq məqsədilə ölkəni tərk edərək Rusiyaya və digər ölkələrə üz tutub. Xarici ölkələrə gedənlərin sayı bir milyonu ötüb. Belə halda isə artıq iflic vəziyyətində olan Ermənistan iqtisadiyyatının rəqabətə davamlılıq reytinqi aşağı düşməkdədir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatı rəhbərinin müavini Rüstəm Mahmudova əzizi

**MƏHBUBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ramil Usubov Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadəyə bacısı

**ZEYNƏB BABAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Kamal İbrahimova və ailə üzvlərinə əzizləri

**RƏFİQ TAĞI OĞLU QƏNDİLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ələkbər, Ələsgər və Gülnarə Tağıyevlər Bəhruz Mahmudova və ailə üzvlərinə əzizləri

**MƏHBUBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Veteranlar Şurasının üzvü, Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadəyə bacısı

**ZEYNƏB BABAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və "Azerenerji" ASC-nin kollektivi Geologiya və Geofizika İnstitutunun baş direktoru, akademik Akif Əlizadəyə bacısı

**ZEYNƏB BABAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ASC "Xalq" Bankının rəhbərliyi və kollektivi görkəmli numizmat alim, AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika və Epiqrafika elmi fond şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru, professor

**ƏLİ RƏCƏBLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6507
Sifariş 3240
Qiyməti 40 qəpik